# Xalq qəzeti

Xalqın qəzeti!

№ 204 (30320) 21 sentyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqəzeti.az


## Günün sözü

**Prezident İlham Əliyev:**

**Bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir.**

# Azərbaycan Qarabağda suverenliyini bərpa etdi

## Prezident İlham Əliyev xalqa müraciət edib



**Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.**

AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.

### Prezident İlham Əliyevin xalqa müraciəti

**– Əziz həmvətənlər!**

Bildiyiniz kimi, dünən səhər erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 Azərbaycan vətəndaşı, onlardan ikisi mülki şəxs mina terrorunun qurbanı olmuşdur. Birinci dəfə deyil ki, bizə qarşı Ermənistan terror aktı törədir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olmuşdur, ya da ki, ağır yaralanmışdır.

Dünənki terror aktı bu sıradan olan hadisə idi. Laçın sərhəd-buraxılış məntəqəsi qurulmayana qədər İkinci Qarabağ müharibəsindən sonra Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz olaraq minalar gətirilmiş və müxtəlif yerlərdə basdırılmışdır. Bir müddət bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri tərəfindən aşkarlanmış minalar Rusiya sülhməramlı kontingentinin və Rusiya–Türkiyə Monitorinq Mərkəzinin nümayəndələrinə göstərilmiş və onlardan ciddi tədbir görülməsi tələb edilmişdir. Bu minalar 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardır. Yəni, bu, bir daha onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün bu minalar gətirilmişdir.

*(ardı 2-ci səhifədə)*

# Erməni silahlıları ölkəmizi tərk etməlidir

**Sentyabrın 19-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən terror məqsədilə əvvəlcədən minaların quraşdırılması, nəticədə mülki şəxslərin və polis əməkdaşlarının həlak olması, həmçinin ordumuzun bölmələrinin minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması faktlarını qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsində sentyabrın 9-da qondarma "prezident seçkiləri"nin keçirilməsi də daxil olmaqla, bu hərəkətlərin Azərbaycanın suverenliyinə qarşı Ermənistanın və onun yaratdığı və dəstəklədiyi qondarma separatçı qurumun məqsədyönlü təxribatlarının davamı olduğunu vurğulayıb.

Azərbaycan Prezidenti bildirib ki, bu kimi təxribatçı və təhrikçi əməllərin qarşısının alınması üçün Azərbaycan bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlamalı olub.

Dövlətimizin başçısı vurğulayıb ki, antiterror tədbirlərinin həyata keçirilməsi zamanı mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır.

Reinteqrasiya məsələlərini müzakirə etmək üçün Azərbaycan Prezidentinin Administrasiyası tərəfindən ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin nümayəndələrinin bir neçə dəfə dialoqa dəvət olunduğu, lakin onların bundan imtina etdiyi, bununla belə lokal xarakterli antiterror tədbirlərinin davam etdiyi vaxtda onların bir daha dialoqa dəvətin edildiyi diqqətə çatdırılıb. Dövlətimizin başçısı silahın yerə qoyulduğu və tərksilah olunduğu halda antiterror tədbirlərinin dayandırılacağını deyib.

ABŞ Dövlət katibi Antoni Blinken yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib, atəşkəsin əldə olunmasına çağırıb və Bakı ilə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri arasında birbaşa dialoqun Amerika Birləşmiş Ştatları tərəfindən dəstəkləndiyini bildirib.

**Prezidentin Mətbuat Xidmətinin məlumatı**



# Azərbaycanın antiterror əməliyyatlarının əks-sədası BMT tribunasında

**Ötən əsrin sonlarında yaranmış yeni beynəlxalq münasibətlərin, daha müasir ictimai-siyasi ab-havanın formalaşması dünya xəritəsində onlarca yeni dövlətin konturlarını cızmışdı. Azərbaycanda isə yeni dövlət yaradılmamış, sadəcə əsrin əvvəllərində əldən gedən dövlət müstəqilliyimiz bərpa olunmuşdu. Çox təəssüf ki, o dövrün proseslərindən bəhrələnməyə çalışan Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal etmiş və həmin ədalətsizlik nəticəsində torpaqlarımız otuz il qarət, talan, soyğunçuluq və qeyri-qanuni istismara məruz qalmışdır.**

2020-ci ildəki İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan işğal olunmuş torpaqlarının xeyli hissəsini düşmən tapdağından təmizləsə də, ərazilərinin qalan hissəsini məhz siyasi yollarla – Moskva, Bakı və İrəvanın imzaladığı üçtərəfli Bəyanatın müddəalarına əsasən azad edilməsinə razılaşmışdı. Ancaq düşmən öz iyrənc məqsədlərindən əl çəkməyərək, üçtərəfli Bəyanata məhəl qoymadı və Qarabağda daha da güclənmək istiqamətində atdığı qeyri-qanunu addımlarını davam etdirdi.

Odur ki, Azərbaycanın öz ərazisində – Qarabağ iqtisadi rayonunda antiterror əməliyyatları aparması beynəlxalq hüququn norma və prinsiplərinə, ölkə Konstitusiyasına və üçtərəfli Bəyanatın müddəalarına tam uyğun idi. Biz bu yazıda həmin əməliyyatlara və ümumiyyətlə, Azərbaycan – Ermənistan münasibətlərinə beynəlxalq aləmdə göstərilən bəzi münasibətlərdən söz açmaq istəyirik.

*(ardı 4-cü səhifədə)*

# İkinci kapitulyasiya – Yevlaxa Xankəndinin açarı gətiriləcək

Səhifə ⇨ 5

## Xarici ekspertlərdən haqq işimizə dəstək



Səhifə ⇨ 6



## Xarici ticarətin coğrafiyası genişlənir

Səhifə ⇨ 7

## Qərb yenə separatçıların yanında oldu



Səhifə ⇨ 5

## Uğurlar, "Qarabağ"!




Səhifə ⇨ 11

## Qarabağda baş verənlər qlobal medianın gündəmində



Azerbaycan'dan Karabağ'da operasyon

Azerbaycan Savunma Bakanlığı, Karabağ'da terörle mücadele operasyonları başlatıldığını duyurdu.

**Bu il sentyabrın 19-da Azərbaycanın Qarabağda Rusiya sülhməramlılarının müvəqəti nəzarətində olan ərazilərdə antiterror əməliyyatına başlaması xəbəri dərhal qlobal medianın əsas mövzularından birinə çevrilib. Bu hadisə, səbəblər və gözləntilər barədə dünyanın aparıcı informasiya agentlikləri, radio və televiziya kanalları operativ xəbərlər, geniş şərh və rəylər, analitik yazılar təqdim edirlər.**

*(ardı 11-ci səhifədə)*

# Prezident İlham Əliyev xalqa müraciət edib

(əvvəli 1-ci səhifədə)

Azərbaycan dərhal lazımi addımlar ataraq düşməni layiqincə cəzalandırmışdır. Lokal xarakterli antiterror tədbirlərinə başlanıldı və qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına layiqli cavab veriləcəkdir.

Dünən, təxminən, saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir.

Qeyd etməliyəm ki, antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır.

Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda, silahlı qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda, göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır. Bir daha demək istəyirəm ki, ordumuzun, bütün silahlı qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir.

Bir daha qeyd etmək istəyirəm ki, aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində, düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır. Onu da bildirməliyəm ki, Azərbaycan ərazisində qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, zirehli texnika yerləşdirilmişdir. Radioelektron mübarizə vasitələri yerləşdirilmişdir. İki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular yerləşdirilmişdir. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını bizim ərazimizdən çıxarmamışdır. Halbuki dəfələrlə həm Ermənistan rəhbərliyi ilə təmaslar əsnasında, eyni zamanda, beynəlxalq tədbirlərdə yüksək kürsülərdən mən dəfələrlə bu məsələyə qayıdaraq Azərbaycan dövlətinin haqlı narazılığını ifadə etmişdim. 10 noyabr üçtərəfli Bəyanatı, əslində, Ermənistan dövlətinin kapitulyasiya aktı idi və bu kapitulyasiya aktına görə Ermənistan Azərbaycan ərazilərindən bütün silahlı qüvvələrini çıxarmalı idi. Ancaq bundan imtina edirdi.

Əfsuslar olsun ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgər, zabitlərimiz olub. Allah onlara şəfa versin. Onlar Vətən yolunda, haqq-ədalət yolunda, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etmişlər. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Əməliyyatın uğurlu gedişatı təbii ki, Ermənistan dövlətini və onun himayəsi altında fəaliyyət göstərən qanunsuz xunta rejimini ciddi təşvişə salmışdır. Əməliyyatdan bir qədər sonra bizə vasitəçilər tərəfindən müxtəlif qeyri-müəyyən siqnallar gəlməyə başlamışdır və bizim silahlı qüvvələrimizin uğurlu irəliləyişi nəticəsində bu siqnallar daha intensiv xarakter almışdır. Bu gün səhər beynəlxalq tərəfdaşlardan bizə verilən məlumat ondan ibarət idi ki, qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun bu birləşmələri artıq bizim şərtlərimizi qəbul etməyə hazırdırlar. Bizim şərtlərimizi isə mən dünən mənə zəng etmiş Amerika Birləşmiş Ştatlarının Dövlət katibinə çatdırmışdım. Məndən soruşuldu ki, antiterror tədbirlərini dayandırmaq üçün nə lazımdır? Mən dedim ki, Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda, bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks-təqdirdə sona qədər gedəcəyik və düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir.

Bu gün səhər saatlarında artıq bizə bildirildi ki, bizim şərtlərimiz qəbul edilib. Üstəgəl, bir neçə ay ərzində bizim nümayəndələrimizlə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bizimlə dediyimiz yerdə – Yevlax şəhərində görüşməyə hazırdırlar. Mənim cavabım belə oldu ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bunu dostlarımız da bilir, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir və bizim şərtlərimiz qəbul olunarsa, təbii ki, tədbirlərimiz, hərbi tədbirlərimiz dayandırılacaq və bu gün saat 13-də atəşkəs elan edildi. Əfsuslar olsun ki, qarşı tərəf atəşkəsə tam əməl etməyib. Atəşkəs elan olunandan sonra da bizim mövqelərimiz atəş altına düşmüşdür. Buna baxmayaraq, prinsip etibarilə bizim şərtlərimiz tam qəbul olundu və onu da bildirməliyəm, indi saat yeddiyə beş dəqiqə işləyir.

Artıq qanunsuz erməni silahlı birləşmələrinin mövqelərdən çıxarılma prosesi başlamışdır. O cümlədən, onlar bizim şərtimizi qəbul edərək silahların da təhvil verilməsinə başlamışlar. Sual olunur. Bu vəziyyətə gətirib çıxarmaq kimə xeyir gətirdi? Axı, İkinci Qarabağ müharibəsindən dərhal sonra biz haqlı narahatlığımızı ifadə edərək dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına və digər tərəflərə müraciət edərək deyirdik ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır. Biz deyirdik ki, qanunsuz xunta rejimi öz əski parçasından artıq olmayan dırnaqarası bayraqlarını büküb cibinə qoyub bizim torpağımızdan çıxmalıdır. Bu, bizim suveren hüququmuzdur. Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Əgər vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyirdisə, indi "Qarabağ Azərbaycandır!" deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, bunu öz xoşu ilə etməyib, bunu "dəmir yumruq" hesabına etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı statusu ola bilər?! Hansı dövlət atributları ola bilər?! Hansı seçkilər ola bilər?! Bütün İkinci Qarabağ müharibəsi başa çatandan sonra əldə edilmiş üçtərəfli şifahi razılaşmalara rəğmən bu ayın 9-da Qarabağda saxta "seçkilər" keçirildi, saxta "prezident" seçildi, dırnaqarası prezident. Həmin o şəxs dərhal bəyan etdi ki, onlar statusun dalınca qaçacaqlar. Yəqin ki, mənim sözlərim onların yadından çıxıb. İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi. Müharibədən bir müddət sonra biz status haqqında cəfəng ifadələri eşitmirdik. Amma görünür ki, bu qorxu onların canından yavaş-yavaş çıxdıqca yenidən revanşist qüvvələr baş qaldırır. Ona görə bütün bu amillər bir daha onu göstərir ki, qanunsuz kriminal xunta rejimi azğınlaşıb, harınlaşıb və qudurub. Unudub ki, onlar Azərbaycan ərazisində yaşayırlar. Ona görə bizim bütün addımlarımız legitimdir, hüquqidir, ədalətlidir və bütün addımlara görə biz həm məsuliyyət daşıyırıq, həm qürur hissi keçiririk. Yenə də deyirəm, antiterror tədbirləri yüksək peşəkarlıqla, dəqiqliklə elə aparıldı ki, mülki əhali zərbə altına düşmədi, mülki infrastruktura zərər vurulmadı. Ancaq düşmən mövqeləri, onların silahları, texnikaları məhv edildi.

İndi isə əminəm ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər. Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.

Bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq. Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar.

Yevlax şəhərində mənim nümayəndəmlə Qarabağ icmasının nümayəndələrinin görüşü əsnasında biz öz baxışlarımızı, gələcək birgə yaşayış baxışlarımızı onlara çatdıracağıq. Onların bütün hüquqları təmin ediləcək – təhsil hüquqları, mədəniyyət hüquqları, din hüquqları, munisipal seçki hüquqları. Yəni, Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq, İkinci Qarabağ müharibəsi bir daha onu göstərdi. Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi – Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə, bax, bu gözəl ab-hava, bu, təbii bir məkandır və biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik. Biz müxtəlif sosial proqramlar icra etməyə hazırıq. Biz bütün Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq, görün, nə qədər böyük işlər görürük, cəmi iki il ərzində. O bölgədə bəlkə də 30 il ərzində heç 1 faiz də iş görülməyib – elektrik stansiyaları, körpülər, tunellər, su anbarları, yaşayış binaları, kəndlər, şəhərlər qurulur. Cəmi iki il ərzində. Heç bir yardım almadan, özümüz. İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk, hər gələn insan onu görür. Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu, bizim əlimizdədir. Ona görə bizim təklifimiz budur və bu gün dönüş nöqtəsi idi. Xunta, qansoran zəlilər artıq tamamilə ifşa olundu və təslim oldu. Onlar ağ bayraq qaldırdılar!

Bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər. Biz buna hazırıq və Azərbaycan xalqı bilir, əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir.

Ermənistan bu dövr ərzində – dünən, bu gün deyə bilərəm ki, gözlənilmədən siyasi səriştə göstərib və biz bunu qiymətləndiririk. Bunu önəmli amil kimi görürük və hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr, eyni zamanda, Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək.

Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət, sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Biz, sadəcə olaraq, tələb edirdik həm onlardan, həm onların arxasında duran və onlar üçün dar məqamda onların yanında olmayan, uzaqda, Avropada yerləşən dırnaqarası erməni cəfakeşləri bilsinlər – nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik. Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil – Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

# Uzunmüddətli, səmərəli, strateji əməkdaşlıq

## Prezident İlham Əliyev BP şirkətinin İdarə Heyətinin sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də BP şirkətinin İdarə Heyətinin sədri Helqe Landı qəbul edib.**

Görüşdə BP şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasında iştirak edən şirkətin sabiq baş icraçı direktoru Lord Con Filip Braun iştirak ediblər.

Söhbət zamanı 20 sentyabr – "Əsrin müqaviləsi"nin imzalandığı günün önəmi qeyd edildi, bunun ölkəmizin inkişaf tarixində çox mühüm bir səhifə olduğu vurğulandı. Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin imzalandığı və Azərbaycanda neft işçilərinin peşə bayramı kimi qeyd edilən Neftçilər Günündə bu görüşdə BP şirkətinin rəhbərliyinin, həmçinin tarixi müqavilənin birbaşa iştirakçısı və uzun illər BP şirkətinin rəhbəri olan Lord Con Filip Braunun iştirakını yüksək qiymətləndirərək Azərbaycan ilə şirkət arasında həyata keçirilən uzunmüddətli sıx, səmərəli və strateji əməkdaşlığın tarixinə toxundu. Dövlətimizin başçısı bunu investorlar və investisiya qoyulan ölkə arasında olan əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi və bu əməkdaşlığın qarşılıqlı inam, etimad və faydaya əsaslandığını məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın keçdiyi çətin və tarixi sınaq dövründə ölkədə iqtisadi inkişaf yolunun əsasının qoyulmasında 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin xüsusi rolunu vurğuladı.

Ölkəmizin sosial-iqtisadi nailiyyətlərində neft-qaz sektorunun xüsusi önəminə toxunan dövlətimizin başçısı Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilmiş və nəzərdə tutulan regional və qlobal miqyaslı layihələrdən danışdı.

BP şirkətinin sabiq baş icraçı direktoru Lord Con Filip Braun "Əsrin müqaviləsi"nin imzalandığı həmin çətin dövrdə məhz ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi sayəsində investisiya qoyuluşu üçün mövcud risklərin dəf edildiyini və beləliklə bunun nəticəsində bu mühüm müqavilənin imzalandığını böyük məmnunluqla xatırladı. Şirkətin nümayəndələri ölkəmizin mürəkkəb dövründə "Əsrin müqaviləsi"nin ümummilli liderin qətiyyətli və məharətli siyasəti nəticəsində ərsəyə gəldiyini vurğuladılar, Azərbaycanın enerji ehtiyatlarının inkişafında bu müqavilənin rolundan bəhs etdilər.

Onlar qeyd etdilər ki, müasir dövrdə Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinə ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə yaradılan infrastruktur böyük töhfə verib və irimiqyaslı layihələrin qısa müddətdə həyata keçirilməsini şərtləndirib. Vurğulandı ki, ölkəmizdə icra olunan layihələrdə tətbiq edilən mühəndislik, ətraf mühitin qorunması və digər standartlar BP-nin fəaliyyət göstərdiyi dünyanın digər bölgələrindəki standartlar səviyyəsindədir və ya onlardan da üstündür. Bu da ölkəmizin neft-qaz sahəsində zəngin insan kapitalının mövcudluğu hesabına mümkün olub.

Azərbaycanın dünyanın ən qədim neft-qaz sənayesinə malik olduğunu deyən qonaqlar bu sənayenin ən müasir səviyyəyə çatdırılmasında ölkəmizin beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığına və strateji baxışına toxundular.

Söhbət zamanı BP şirkətinin Azərbaycanda neft-qaz və enerji sahələrində gələcək layihələrdə də maraqlı olduğu vurğulandı, yeni sərmayə qoyuluşu imkanları müzakirə edildi. Qlobal enerji keçidi nəzərə alınaraq, BP-nin Azərbaycanda olan tərəfdaşlarla, o cümlədən, SOCAR ilə əməkdaşlıqda, yeni bərpaolunan enerji layihələrinin həyata keçirilməsində maraqlı və qətiyyətli olduğu bir daha diqqətə çatdırıldı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Sonda Lord Con Filip Braun ulu öndərlə olan xatirə fotosunu dövlətimizin başçısına təqdim etdi.

**AZƏRTAC**

# Qarabağ ermənilərinin hüquqları qorunacaq

**Sentyabrın 20-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı regiondakı vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Şarl Mişel regionda baş vermiş hadisələrdən narahatlığını ifadə edib.

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin dünən terror aktları törətdiklərini, nəticədə polis əməkdaşlarının və mülki şəxslərin həlak olduğunu bildirib, buna cavab olaraq Azərbaycanın lokal xarakterli antiterror tədbirləri görməli olduğunu qeyd edib.

Dövlətimizin başçısı bu gün antiterror tədbirlərinin dayandırılması ilə bağlı əldə edilmiş razılaşmaya toxunaraq, Ermənistan silahlı qüvvələrinin bölmələrinin Qarabağdan çıxarılmasının, qanunsuz silahlı dəstələrin silahı yerə qoymasının və tərk-silah edilməsinin, Yevlaxda keçiriləcək görüşün müsbət addım olduğunu bildirib. Prezident İlham Əliyev qeyd edib ki, Yevlax görüşündə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağ ermənilərinin hüquqları və öhdəlikləri ilə əlaqədar, o cümlədən onların mədəni, dini, bələdiyyə və digər hüquqları ilə bağlı məsələlər müzakirə ediləcək. Dövlətimizin başçısı bildirib ki, bunu Azərbaycan öz daxili işləri kontekstində həyata keçirir.

Azərbaycan Prezidenti regional sülh gündəliyinin dəstəklənməsinin əhəmiyyətinə toxunub, birtərəfli addımların atılmasının tamamilə əks effekt yarada biləcəyini deyib. Dövlətimizin başçısı vurğulayıb ki, əldə edilmiş nəticələr Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi üzrə danışıqların da irəli aparılmasına müsbət təsir göstərəcək.

Avropa İttifaqı Şurasının Prezidenti antiterror tədbirlərinin dayandırılmasını müsbət hal kimi qiymətləndirib, atəşkəs rejiminin təmin olunacağına ümidvarlığını ifadə edib. Şarl Mişel, həmçinin Yevlaxda keçiriləcək görüşü də müsbət dəyərləndirib.

**Prezidentin Mətbuat Xidmətinin məlumatı**

# Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğana təşəkkür edib

**Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkürünü bildirib.**

Dövlət başçısı bu barədə sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Əziz qardaşım, BMT Baş Assambleyasında çıxışınız zamanı Azərbaycana verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə Azərbaycanın yanındadır və haqq işimizdə bizə dəstək verir. Azərbaycan və Türkiyə xoş günlərdə də, kədərli anlarda da daim bir yerdədirlər. Beynəlxalq təşkilatlarda həmişə bir-birimizin haqlı mövqeyini müdafiə edirik. Şuşa Bəyannaməsi ilə münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Siz də, mən də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qardaşlığımızın rəmzi olan "Bir millət, iki dövlət" kəlamını daim yada salaraq Azərbaycan və Türkiyə arasında olan sarsılmaz birliyi yeni zirvələrə daşıyırıq".

**AZƏRTAC**

# Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin ləğvi və "Bakı şəhərində körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 11 may tarixli 635 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi ləğv edilsin.

**2.** "Bakı şəhərində körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 11 may tarixli 635 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 428) 2-ci hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 20 sentyabr 2023-cü il**

# Prezident Administrasiyası xəbər verir: Reinteqrasiya Yevlaxdan başlayacaq

**Qarabağın erməni sakinlərinin nümayəndələri ilə 2023-cü il sentyabrın 21-də Yevlaxda görüş keçiriləcək. Bu barədə Prezident Administrasiyasının açıqlamasında bildirilib.**

Qeyd olunub ki, görüş Prezident Administrasiyasının təklif etdiyi kimi, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirəsi məqsədi daşıyır.

**XQ**

# Hikmət Hacıyev: Heç bir mülki obyektə zərbə endirilmədi

**Azərbaycan keçirdiyi antiterror tədbirlərində bütün hədəflərə selektiv və diqqətlə, ehtiyatla və həssaslıqla yanaşdı, heç bir mülki obyektə zərbələr endirilmədi.**

XQ xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu gün keçirilən brifinqdə bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, bu antiterror tədbirləri Qarabağ sakinlərinin telefonlarına göndərilmiş SMS-lər vasitəsilə onlara xəbərdarlıq edilirdi ki, onlar hərbi obyektlərdən uzaq dursunlar.

**Prezidentin köməkçisi daha sonra deyib:** Qarabağın erməni sakinlərinin sosial-iqtisadi inteqrasiyası Azərbaycanın daxili məsələsidir. O qeyd edib ki, Qarabağın erməni sakinlərinin geniş formada sosial-iqtisadi inteqrasiyası üçün plan hazırdır və bu, müvafiq aidiyyəti qurumlarla birlikdə hazırlanıb.Bir daha bildiririk ki, Azərbaycanın məqsədi Qarabağın erməni sakinlərinin sülh şəraitində inteqrasiyasıdır. Biz Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasının tərəfdarıyıq. Amma müstəqil Azərbaycan Respublikasının ərazisində 10 minlərlə bir hərbi qüvvənin olması qəbuledilməz idi.

**XQ**

# Elçin Əmirbəyov: Azərbaycan problemi özü həll etməli oldu

**Azərbaycan öz işini özü həll etməyə məcbur oldu. Dünya dövlətlərinin atacağı bəzi addımlar isə sülh gündəliyinə mane ola bilər. Azərbaycanın bu müraciətinin eşidiləcəyinə ümid edirəm.**

XQ xəbər verir ki, bu sözləri sentyabrın 20-də Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bölgədəki son vəziyyətlə bağlı Xarici İşlər Nazirliyində Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üçün keçirilən brifinqdə söyləyib.



O qeyd edib ki, Ermənistan tərəfi bu gün əldə olunan razılığı tam şəkildə icra edəcək. Bu isə öz növbəsində sülh prosesinə təkan verəcək.

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsinin sözlərinə görə, Azərbaycan bundan sonra əsas məsələlərə diqqət yetirə biləcək.

Qarabağda olan qanunsuz silahlılar hər gün yüzlərlə insanımızın həyatına ciddi təhlükə törədir. Üç ilə yaxındır ki, həmin ərazimizdə 10 minə yaxın qeyri-qanuni silahlı mövcuddur.

**XQ**

**Xarici diplomatik korpus üçün brifinq**

# Qarabağda əməliyyat qələbə ilə bitdi






**Sentyabrın 20-də Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov və xarici işlər nazirinin müavini Fariz Rzayevin iştirakı ilə Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirilib.**

**Brifinq zamanı aşağıdakı əsas məqamlar diqqətə çatdırılıb:**

• Sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törədib.

• Erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları həlak olub və yaralanıb. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub. Nəticədə, Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanıb.

• Sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak olub.

• Erməni silahlı qüvvələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edilib.

• Sadalanan amillər fonunda, Qarabağ iqtisadi rayonunda yerləşdirilmiş erməni silahlı qüvvələrinin təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

• Görülən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb.

• Antiterror tədbirləri müstəsna olaraq qanunsuz hərbi birləşmələri və hərbi infrastrukturu hədəf alıb. Mülki əhali və obyektlərə heç bir halda hücum edilməyib. Bununla bağlı hər hansı iddia əsassız və qəbuledilməzdir.

• Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yaşayış yerlərinin yaxınlığında hərbi infrastrukturun yerləşdirilməsini nəzərə alaraq, Azərbaycan ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa çağırıb. Mobil SMS xidməti, səsgücləndirici texniki vasitələr və məlumat vərəqələri vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinləri müvafiq olaraq məlumatlandırılıb.

• Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüququn normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunub.

• Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılıb.

• Azərbaycan tərəfi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsinin regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olduğunu dəfələrlə bəyan edib.

• Bölgədə sülhə və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır.

• Azərbaycanın suveren ərazilərində beynəlxalq hüquqa zidd olaraq istənilən hərbi mövcudluq regional sülh və təhlükəsizliyə ciddi təhdiddir və Azərbaycanın hərəkətləri müstəsna olaraq bu qanunsuz qüvvələrin sıradan çıxarılmasına və qondarma rejimin buraxılmasına yönəlib.

• Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı.

• Razılaşmaya əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı və tam şəkildə tərk-silah olunmalıdır.

• Razılaşmanın icrası Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçiriləcəkdir.

• Sentyabrın 21-də Yevlax şəhərində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin nümayəndələri ilə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları çərçivəsində reinteqrasiya məsələlərini müzakirə etmək üçün görüş keçiriləcək.

**XQ**

# Qarabağda qanunsuz erməni birləşmələrini hərbi mütəxəssislər silahsızlaşdıracaq

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında bildirib:**




– Qarabağın mülki əhalisinin nümayəndələri olan şəxslərlə Azərbaycanın Yevlax şəhərində görüşməyə hazır olduğumuzu bir daha ifadə edirik. Bu, Azərbaycanın təşəbbüsüdür.

O qeyd edib ki, bu təşəbbüsü bir neçə ay bundan öncə də yerinə yetirmək olardı. Amma onlar hər vəchlə, müxtəlif bəhanələrlə bu pozitiv gündəliyin həyata keçirilməsinə imkan vermirdilər və problemlər yaradırdılar: "Azərbaycanın mövqeyi ondan ibarətdir ki, regional məsələlər regionda həll edilməlidir. Azərbaycan bu gündəliyin tərəfdarıdır. Digər ölkələrin özləri arasındakı geosiyasi rəqabəti və problemləri Cənubi Qafqaza daşımalarına ehtiyac yoxdur. Onsuz da Cənubi Qafqaz regionu uzun illərdir münaqişələrdən, təhlükələrdən əzab çəkib. Ermənistan da regionda bu kimi siyasətlərin həyata keçirilməsində alət olmamalıdır.

Təəssüflər olsun ki, Ermənistan bu kimi funksiyaları yerinə yetirməyə bir çox hallarda niyyətli görünür. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hibrid müharibə son dövrlərdə istər media müstəvisində, istər diplomatik cəbhədə və real olaraq yerdə özünü göstərməkdədir. Qeyri-sülh gündəliyinin bütün komponentləri üzrə, yəni, Azərbaycan–Ermənistan sülh müqaviləsi, sərhədlərin delimitasiyası və nəqliyyat xətlərinin açılması məsələləri üzrə tamamilə qeyri-konstruktiv bir mühit yaranıb. Bunun da günahkarı Ermənistan tərəfidir".

H.Hacıyev bildirib ki, Ermənistanın üçtərəfli Bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərin tərkib hissələrindən biri də Azərbaycanın əsas hissəsi ilə Naxçıvanın birləşdirilməsinin təmin edilməsi idi. Amma Ermənistan bu öhdəliyini də yerinə yetirmir və hər vəchlə Zəngəzur dəhlizinin açılmasına problemlər yaratmaqda davam edir. Qarabağda qanunsuz erməni birləşmələrini hərbi mütəxəssislər silahsızlaşdıracaq. Prosesin işçi mexanizmlərinin hazırlanması aparılır.

**XQ**

# Baş Prokurorluq: Ermənilərin mülki şəxslərə qarşı cinayətləri davam edir

**Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yaradılmış Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən dünən iri çaplı silahlardan, o cümlədən, minaatanlardan atəşə tutularaq törədilən terror hücumları nəticəsində 2 mülki şəxs – Şuşa şəhərində mənzil-kommunal və təmir xidməti mühəndisi işləyən 1967-ci il təvəllüdlü Vidadi Fərhadov adlı şəxs qətlə yetirilib, Ağdam rayonunda isə ərazidə bərpa quruculuq işləri aparan şirkətlərdən birinin ekskavator operatoru 1992-ci il təvəllüdlü mülki şəxs Mehman Həsənovun çoxsaylı qəlpə xəsarətləri yetirilməklə qəsdən öldürülməsinə cəhd edilib.**

XQ xəbər verir ki, bu sözləri Baş Prokurorluğun mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov sentyabrın 20-də keçirilən brifinqdə söyləyib.

"Bütün bunlar onu göstərir ki, qanunsuz erməni silahlı birləşmələri yenə də əvvəlki dövrdə olduğu kimi mülki şəxslərə qarşı terror cinayətlərini törətməkdə davam edir. Baş vermiş hər bir faktla bağlı cinayət işləri başlanmaqla istintaq aparılır, hazırkı şəraitdə prokurorluq əməkdaşları tərəfindən mümkün olan istintaq hərəkətləri aparılır, həmçinin mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin edilib. Təəssüflər olsun ki, dünəndən bəri bəzi sosial şəbəkə istifadəçiləri tərəfindən əhalinin həssas olduğu mövzulara dair, xüsusilə yalandan çoxlu sayda şəhidlərimizin olması barədə süni ajiotaja səbəb olan, rəsmi dövlət qurumları ilə dəqiqləşdirilməmiş informasiyalar ictimailəşdirilir.

Nəzərə çatdırılır ki, internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması məsuliyyətə səbəb olur", – K.Zeynalov vurğulayıb. O bildirib ki, hüquq-mühafizə orqanları hazırda koordinasiyalı fəaliyyət göstərir və bu tipli istənilən qanunsuz hərəkətin qarşısı alınacaq: "Qanunsuz hərəkətə yol vermiş şəxslər məsuliyyətə cəlb olunacaq. Əminliklə bildiririk ki, Azərbaycan xalqı 44 günlük Vətən müharibəsi dövründə olduğu kimi, yenə də vətəndaş-dövlət birliyini nümayiş etdirəcək və qanunsuz əməllərə yol verilməyəcək", – deyə K.Zeynalov vurğulayıb.

*

Bildiyiniz kimi, silahlı qüvvələrimiz tərəfindən lokal xarakterli antiterror tədbirləri çərçivəsində mülki şəxslər və heç bir mülki obyekt hədəfə alınmır. Yalnız legitim hərbi hədəflər zərərsizləşdirilir. Lakin qanunsuz erməni silahlı birləşmələri tərəfindən 44 günlük Vətən müharibəsi dövründə olduğu kimi, terror hücumları davam etdirilir, yenə də mülki şəxslər, mülki infrastrukturu və yaşayış binaları hədəfə alınır. Bu sözləri Baş Prokurorluğun mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov dünən keçirilmiş brifinqdə söyləyib. O qeyd edib ki, qanunsuz erməni silahlı birləşmələri tərəfindən sentyabrın 19-da törədilmiş terror aktı nəticəsində qətlə yetirilmiş Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 2 əməkdaşı işğaldan azad olunan ərazilərimizdə yol infrastrukturunun qurulması məqsədilə orada çalışırdı. Qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlamış, törədilmiş terror aktı nəticəsində 4 polis əməkdaşı isə hər hansı hərbi əməliyyatlara cəlb olunmayan, sadəcə qeyd olunan ərazidə ictimai-asayişi bərpa etmək məqsədilə ezam olunmuş şəxslər idi.

**XQ**

# Azərbaycanın antiterror əməliyyatlarının əks-sədası BMT tribunasında



***Biz Ermənistandan başda Zəngəzur dəhlizinin açılması olmaqla, verdiyi sözləri yerinə yetirməsini gözləyirik. Artıq hər kəsin qəbul etdiyi kimi, Qarabağ Azərbaycan torpağıdır və bundan başqa bir status qəbul edilməyəcək. Ermənilər də daxil, hər kəsin Azərbaycan torpaqlarında sülh şəraitində yan-yana yaşaması birinci hədəfimiz olmalıdır. Tək millət–iki dövlət şüarı ilə hərəkət etdiyimiz Azərbaycanın ərazi bütövlüyünə dair atdığı addımları dəstəkləyirik.***

**Rəcəb Tayyib ƏRDOĞAN**
**Türkiyə Cümhuriyyətinin Prezidenti**
**Nyu-York, 19 sentyabr, 2023-cü il**

**(əvvəli 1-ci səhifədə)**

## NYU-YORK

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 19-da Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci iclasında çıxışı zamanı Azərbaycanın Qarabağ iqtisadi rayonunda apardığı antiterror əməliyyatlarına haqq qazandıraraq demişdir: “Qarabağ Azərbaycan torpağıdır, bunun xaricində heç bir status qəbul edilməyəcək”.

Yeri gəlmişkən, cənab Ərdoğanın Nyu-Yorkdakı çıxışının başqa bir məqamı da var idi ki, o da Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsinə zəmin yaradırdı. Belə ki, Türkiyə Prezidenti BMT TŞ üzvlərini ittiham edərək dedi ki, Təhlükəsizlik Şurası artıq dünya təhlükəsizliyinin qarantı deyil, 5 ölkənin siyasi strategiyasının döyüş meydanına çevrilib.

Bu, həqiqətən, belə idi. Əgər elə olmasaydı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycan torpaqlarını işğal etmiş Ermənistan ordusunun bu ərazilərdən çıxarılmasını tələb edən 4 qətmaməsi icra edilmiş olardı. Həmin sənədlər 30 ilə yaxın kağız üzərində qaldı və sonda Azərbaycan ərazilərini özü işğaldan azad etmiş oldu.

## BAKI

Azərbaycan əsgərinin öz ulu babası Pənahəli xanın qurub tikdiyi Xankəndiyə doğru atdığı addımların səsini Nyu-Yorkda eşitdirən Rəcəb Tayyib Ərdoğana dərhal Bakıdan minnətdarlıq məktubu ünvanlandı. Azərbaycan Prezidenti İlham Əliyev türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana yazırdı:

“Əziz qardaşım, BMT Baş Assambleyasında çıxışınız zamanı Azərbaycana verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə Azərbaycanın yanındadır və haqq işimizdə bizə dəstək verir... Azərbaycan və Türkiyə xoş günlərdə də, kədərli anlarda da daim bir yerdədirlər. Beynəlxalq təşkilatlarda həmişə bir-birimizin haqlı mövqeyini müdafiə edirik. Şuşa Bəyannaməsi ilə münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Siz də, mən də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qardaşlığımızın rəmzi olan "Bir millət, iki dövlət" kəlamını daim yada salaraq Azərbaycan və Türkiyə arasında olan sarsılmaz birliyi yeni zirvələrə daşıyırıq”.

## TƏL-ƏVİV

Məlum olduğu kimi, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün atdığı addımları ən səmimi şəkildə dəstəkləyən ölkələr arasında İsrail də mühüm yer tutur. Bu dost ölkənin “Kanal 12” televiziyası Netanyahunun ofisindən verilən məlumata əsasən bildirir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda İsrailin Baş naziri Benyamin Netanyahu ilə görüşüb. Televiziya əməkdaşı əlavə edir ki, tərəflər arasındakı işbirliyinin daha da genişləndirilməsi, eləcə də, hər iki paytaxtın maraq dairəsində olan məsələlərin birlikdə həll edilməsi üçün məsləhətləşmələr aparılıb.

Təbii ki, hər iki paytaxtın maraq dairəsində olan məsələlərdən biri də Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olmaqdır. Elə sentyabrın 19-da əsgərlərimizin başladığı antiterror əməliyyatları zamanı düşmənin Fransa, İran və Hindistandan gətirdiyi silahları külə döndərən vasitələr də məhz Türkiyə və İsraildə istehsal olunmuş xüsusi hərbi aparatlar idi.

Bundan başqa, tərəflər Türkiyə Cümhuriyyətinin 100 illiyi münasibətilə gələn ay Qüdsdəki Əl-Əksa məscidində keçiriləcək möhtəşəm tədbirdə cənab Rəcəb Tayyib Ərdoğanın da iştirak etməsi barədə razılığa gəliblər. Bu isə müsəlman dünyası üçün olduqca möhtəşəm uğurdur. Bu, o deməkdir ki, Türk dünyası eyni vaxtda həm Qarabağı işğaldan tam təmizləmiş olur, həm də İslami dəyərlərin hamısına əlçatanlığımız yaranır.

## VAŞİNQTON

Cənab Ərdoğanın BMT Baş Assambleyasının sessiyasında səsləndirdiyi: “Təhlükəsizlik Şurası artıq dünya təhlükəsizliyinin qarantı deyil, 5 ölkənin siyasi strategiyasının döyüş meydanına çevrilib... “Qarabağ Azərbaycan torpağıdır, bunun xaricində heç bir status qəbul edilməyəcək” tezisləri okeanın o biri tayında necə qıcıq yaradıbsa, cəmi bir gündən sonra ABŞ-dakı “Responsible Statecraft” elektron resursu xəbər yaydı ki, “ABŞ Türkiyənin beş şirkətinə sanksiya tətbiq edəcək”.

Qoy etsinlər. Onsuz da Azərbaycan Ordusu Qarabağda – lokal miqyasda olsa da – öz sözünü dedi, cənab Ərdoğan isə dünyanın bütün mötəbər tribunalarından qətiyyətlə haqq sözünü hamıya eşitdirir.

## İRƏVAN

“Arminfo.am” xəbər portalının əməkdaşı Marianna Mkrtçyan yana-yana yazdığı xəbərə belə başlıq verib: “Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT tribunasından Azərbaycanın Qarabağdakı hərbi əməliyyatlarını dəstəkləyən bəyanat verdi”. Müəllif yazır ki, dünya ictimaiyyətinin Ərdoğanın söylədiklərini sakitliklə qarşılaması anlaşılmazdır.

“Üstəlik, Ərdoğan “Türkiyə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün atdığı addımları dəstəkləyir” ifadəsi az imiş kimi Yerevandan gözləntiləri olduğunu da dedi: “Ankara Yerevandan Zəngəzur dəhlizi barədə götürdüyü öhdəliklərin yerinə yetirilməsini də gözləyir”.

Mkrtçyan narahatdır ki, beynəlxalq ictimaiyyət Azərbaycanın Qarabağdakı əməliyyatlarını qınayan “quru” çağırışlarla münasibət bildirməkdən başqa heç bir iş görmür.

## Azərbaycanlı ananın və Türkiyə Baş nazirinin göz yaşları

Əslən Kəlbəcərdən olan dostum Sərxan danışır ki, cənab Rəcəb Tayyib Ərdoğanın BMT-dəki çıxışını eşidəndə anam ağladı. Dedi ki, bizim əvvəllər də belə köməyimiz olsaydı, Qarabağ düşmən əlinə keçməzdi.

Mən isə Sərxana dedim ki, narahat olma, bu diqqət bütün türklərdə var. Elə biz də bir dəfə cənab Ərdoğanın göz yaşlarını görmüşük. Əlavə etdim: 2013-cü il aprelin 22-də İstanbulda 35-ci dəfə keçirilən 23 aprel – Uşaq bayramı münasibətilə təşkil olunmuş şənliklərdə Baş nazir Rəcəb Tayyib Ədoğan da iştirak edirdi. Baş nazirin çıxışından sonra dünyanın müxtəlif ölkələrindən gəlmiş uşaqlara müxtəlif nominasiyalar üzrə medallar verilmişdir. Azərbaycan təmsilçisi kimi səhnəyə dəvət edilən 9 yaşlı qızcığazın çıxışı isə bütün iştirakçıları və qardaş ölkənin dövlət rəsmilərini çox duyğulandırmış, cənab Ərdoğan isə göz yaşını silməli olmuşdu.

Azərbaycanlı uşaq qardaş ölkənin rəhbərinə ( o zaman dövlət rəhbəri Baş nazir idi) demişdi: “Hörmətli Baş nazir, Sizdən və dünyanın bütün liderlərindən bir ricam var: dünyanı qoruyun, uşaqları qoruyun, uşaqların gülüşünü qoruyun. Bu dünya uşaqlarla daha gözəldir. Lütfən, gözəlliyi qoruyun!”

Bəli, Sərxan, qardaş ölkənin dövlət başçısının BMT tribunasından eşidilən haqq səsi məhz dünyanı, uşaqları, gözəlliyi qorumaq üçün nümayiş etdirilən kişi qənaəti, türk qeyrəti və ərən ləyaqəti idi.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist,***
***XQ***

# Qarabağdakı terrorçulara sahib çıxanlar dinc azərbaycanlılara qarşı terrora niyə susurlar?

**İki gündür ki, Qərbin bir sıra mətbuat orqanlarında erməni lobbisinin Azərbaycanı Qarabağda yaşayan ermənilərə qarşı etnik təmizləmə, diskriminasiya aktları törətməkdə ittiham etdiyinin şahidi oluruq. Ermənistan siyasətçiləri, onların xaricdəki havadarları hər vəchlə separatçı xuntaya qarşı antiterror tədbirlərini Azərbaycanın ümumilikdə erməni xalqına hücumu kimi qələmə verməyə çalışırlar.**

Lakin Azərbaycan Silahlı Qüvvələrinin hərbi əməliyyatlarını yaxından izləyən obyektiv ekspertlər və beynəlxalq qurumlar ədalətli mövqe sərgiləyərək bəyan edirlər ki, ordumuz yalnız Qarabağdakı erməni silahlı qruplaşmalarının hərbi infrasturkturunu hədəf aldı və mülki əhalinin zərər görməməsi üçün əlindən gələni etdi.

Artıq proses də başa çatıb və Azərbaycan Qarabağda antiterror tədbirlərinin dayandırıldığını bəyan edib. Cümə axşamı Qarabağın erməni sakinlərinin nümayəndələri ilə “Azərbaycan Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin” müzakirəsi üçün Yevlaxda görüş keçiriləcəyi bəyan edilib.

Xankəndidəki de-fakto hakimiyyətə sahib xunta rejimi, guya, əhalinin fiziki təhlükəsizliyini əsas gətirərək danışıqlara məcbur olduğunu bildirsə də, antiterror tədbirlərinin qarşısında aciz qaldıqlarını gizlətmək mümkün deyil. Lakin burada daha vacib məqamlardan biri Azərbaycan tərəfin mülki şəxsləri hədəf almaqda, hətta etnik təmizləmədə ittiham olunmasıdır. Erməni əhalinin “burnunun belə qanamadığını”, əməliyyatların konkret kimlərə qarşı olduğunu isə onların teleqram kanallarından təsbit etmək heç kim üçün çətin deyil.

Ümumiyyətlə, Ermənistan həm Birinci, həm də İkinci Qarabağ müharibələrində yaşayış məntəqələrini bombalamaqla adını hərb tarixinin qara siyahısına yazdıran ölkədir. 2020-ci ildə Ermənistanın cəbhədəki uğursuzluqlarını kompensasiya etmək üçün hansı müharibə cinayətləri törətdiyi dünya ictimaiyyətinə yaxşı məlumdur.

Bu gün heç bir əsas olmadan Azərbaycanı dinc əhaliyə qarşı silah işlətməkdə ittiham edənlər 2020-ci ilin oktyabr ayında Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə bombalandığını nə tez unutdular?! İlk hücum 4 oktyabrda baş vermiş, nəticədə 1 mülki şəxs şəhid olmuşdu. 30-dan çox günahsız, dinc sakin isə yaralanmışdı.

İkinci raket hücumu da 5 oktyabrda baş vermişdi. Hücum nəticəsində 3 mülki şəxs yaralanmışdı. Üçüncü raket hücumu oktyabrın 8-də olmuşdu. Dördüncü raket hücumu isə 11 oktyabrda baş vermiş və nəticədə 10 mülki şəxs şəhid olmuş və 40-dan çox insan yaralanmışdı.

***(ardı 5-ci səhifədə)***

**KÖŞƏ**

# Erməni avantürizmi canını BMT Təhlükəsizlik Şurasında tapşıracaq

## Bu toplantı İrəvanın Qarabağ iddiasının son beynəlxalq müzakirəsi olacaq

**Bu gün BMT Təhlükəsizlik Şurasının Qarabağda yaranmış durumla bağlı təcili toplantısı keçiriləcək. Buna səbəb ölkəmizin bölgədə həyata keçirdiyi lokal antiterror tədbirləridir. Azərbaycan öz ərazisində Konstitusiya quruluşuna zidd halları aradan qaldırır, kimlərsə narahat olmağa başlayır. O da məlumdur ki, ən böyük narahatlıq keçirən, həmişəki kimi, Ermənistanın “bacısı” Fransadır. Əminliklə söyləmək mümkündür ki, bugünkü toplantı rəsmi Parisin Qarabağda erməni avantürizminin yaşadılması istiqamətindəki son çırpıntısıdır. Əlbəttə, BMT-dəki müzakirə elə İrəvanın da Azərbaycan ərazilərini işğalda saxlamaq istiqamətindəki axırıncı direniş nöqtəsidir.**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

Kənardan belə təəssürat yaranır ki, Fransa Qarabağ üçün Ermənistanın özündən daha çox çalışır. Təsəvvür edin, Ermənistan baş naziri Nikol Paşinyan ölkəsinə məxsus ordu hissələrinin hərbi əməliyyatlara qatılmayacağını vurğulayır, amma Fransa prezidenti Emmanuel Makron onunla telefon danışığı zamanı bildirir ki, BMT Təhlükəsizlik Şurasının toplantısını çağıracaq. Həqiqətən də, rəsmi Parisi, elə Makronun özünü də olduqca miskin mənzərə gözləyir.

Miskinlikdən söz düşmüşkən, Fransa bir yana, Ermənistan dövlətinin adına son dərəcə biabırçı durum yaşanır. Bilirik ki, müasir Ermənistan Qarabağ xülyası üzərində qurulmuş respublikadır. Ölkənin ideoloji bazasını məhz bu amil təşkil edir. Vaxtilə Azərbaycan torpaqlarını işğal edən də Ermənistan olmuşdu. Hazırda Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsinin qabardılması, məsələnin beynəlxalq təminatlarının yaradılması və bunun Azərbaycan–Ermənistan sülh müqaviləsinin tərkib hissəsi olaraq təsbiq edilməsi iddiası da işğalçılığın fərqli təzahür formasından başqa bir şey deyil.

Amma bu iddianı irəli sürənlər antiterror tədbirlərindən qorxuya düşərək özlərinin müqəddəs bildikləri, əslində, saxta mahiyyət daşıyan məsələyə tüpürürlər. Paşinyanın Ermənistan ordusunun Qarabağdakı hərbi əməliyyatlara girişməyəcəyinə dair fikirləri bunun nəticəsidir. Necə deyərlər, İrəvan başı girməyən yerə bədənini soxmağın acı, rüsvayçı aqibətini yaşayır. Uca səslə, ucuz populizm notları ilə qaldırdıqları “Artsax” sarsaqlığı məhvə doğru gedir. Reallığı separatçı rejimdə də, Ermənistanın özündə də yaxşı dərk edirlər. Görünür, gerçəkliyi anlamayan təkcə Makron Fransasıdır.

***

Fransanın Qarabağ, Azərbaycan–Ermənistan münasibətləri müstəvisindəki canfəşanlığının BMT tribunalarına çıxarılması ilk dəfə deyil ki, yaşanır. Paris dəfələrlə mövcud xüsusda İrəvana patronajlıq edib. Ümumən, “erməni məsələsinin” bu mötəbər təşkilatda diskussiya predmetinə çevrilməsi ilə bağlı bütün məqamlarda Fransanın “rolu” var.

Qeyd edək ki, bu il avqustun 16-da BMT Təhlükəsizlik Şurası Ermənistanın müraciəti əsasında Qarabağda humanitar vəziyyəti, saxta soyqırımı və etnik təmizləmə iddialarını müzakirəyə çıxarmışdı. Həmin vaxt rəsmi İrəvan buna çox böyük ümidlər bəsləmişdi. Lakin həmişə olduğu kimi, gözləntilər özünü doğrultmamışdı. Azərbaycan tərəfinin ortaya qoyduğu sübut və arqumentlər nəticəsində toplantı heç bir qərar çıxarmamışdı. Necə deyərlər, yığıncaq danışıb-dağılışmaq mərasiminə çevrilmişdi.

Onu da vurğulayaq ki, erməni avantürası səbəbindən BMT-dəki belə danışıb-dağılışmalar son illər adət halını alıb. Sanki qurumun başqa işi-gücü yoxdur. Bu məqamı Azərbaycanın təşkilatdakı daimi nümayəndəsi Yaşar Əliyev vaxtilə çox gözəl ifadə etmişdi. O, bildirmişdi ki, Ermənistan dövlətinin idarə olunan manipulyasiya, təhrif və saxtakarlıq kampaniyasına görə Təhlükəsizlik Şurasından sui-istifadəsi dərin təəssüf hissi yaradır.

Doğrudan da, ortada BMT adına da xoşagəlməz mənzərə yaranır. Təşkilat bəşəriyyət üçün vacib məsələləri müzakirə etməli olduğu halda, dünya erməniliyinin mənasız ambisiyalarının səsləndiyi məkana çevrilməkdədir. Çox güman ki, qurumun tarixində heç vaxt separatçı iddialar müzakirəyə çıxarılmamışdı. Heç şübhəsiz, mövcud cəhət onun nüfuzunu da zədələyir, ona inamı və etimadı azaldır. Axı, ortada böyük reallıq var. Elə bir reallıq ki, həm hüquqa, həm də tarixə söykənir. Bu reallığın mübahisə obyekti olması mümkünsüzdür.

Yeri gəlmişkən, Y.Əliyev yuxarıda diqqətə çatdırdığımız fikirləri 2022-ci il dekabrın 21-də BMT TŞ-nin məhz Fransanın təşəbbüsü ilə keçirilmiş və Laçın yolundakı vəziyyətə həsr olunmuş müzakirəsində bildirmişdi. Həmin toplantıda Ermənistanın beynəlxalq səviyyədə, guya, Laçın yolunun bağlanması və bu səbəbdən Qarabağda “humanitar böhran” yaranması iddiaları ilə yaratmaq istədiyi növbəti şou cəhdi fiaskoya uğramışdı. Müzakirə heç bir sənəd qəbul edilmədən yekunlaşmışdı. Fransa və digər iki-üç ölkə Laçın yolunun açılması çağırışlarını səsləndirsələr də, TŞ-nin iclası Azərbaycanın ərazi bütövlüyünə hörmət kontekstində keçmişdi.

Ümumən, erməni iddialarının BMT müstəvisinə çıxarılmasının fiasko sonluğunu xarakterizə edən vacib amil var. Bir qayda olaraq, bu mötəbər tribunadan Azərbaycanın ərazi bütövlüyü məsələsi gündəmə gəlir. Yəni, Ermənistan Qarabağ avantürasını əsaslandırmaq istəyərkən, istər-istəməz, tamamilə əks vəziyyətlə üzləşir. Nəticə etibarilə, beynəlxalq ictimaiyyət Qarabağın Azərbaycana məxsusluğu reallığı ilə daha yaxından tanışlıq əldə etmək imkanı qazanır.

Xarici aləm 44 günlük müharibə zamanı da belə bir imkanı qazanmışdı. Həmin vaxt Ermənistan rəhbərliyi Azərbaycanın öz torpaqlarını düşmən tapdağından azad etməsini işğalçılıq kimi göstərmək istəyirdi və onun üz tutduğu tribuna yenə BMT TŞ olmuşdu. Lakin qurum gündəliyə çıxarılmış Azərbaycan əleyhinə qətnaməni qəbul etməmişdi.

***

Bəli, BMT müstəvisi Ermənistan və havadarları üçün həmişə fiasko meydanına çevrilib. Heç şübhəsiz ki, bu gün də eyni aqibət yaşanacaq. Başqa yol yoxdur. Hər halda, qurum özünü inkar edə bilməz. Onun beynəlxalq hüquq prinsiplərini saymazdan gəlməsi mümkünsüzdür. Özünü ona görə inkar edə bilməz ki, BMT TŞ-nin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını pisləyən dörd qətnaməsi var. O qətnamələr ki, otuz ilə yaxın müddətdə icra olunmamışdı. Ölkəmiz 44 günlük müharibədəki şanlı qələbəsi ilə həm də BMT üzərindəki bu ləkəni təmizlədi. Beynəlxalq hüquq amili isə o səbəbdən aktualdır ki, Azərbaycan BMT üzvlüyünə 86,6 min kvadratkilometr ərazidə daxil olub və həmin ərazidə Qarabağ da var.

Sonda onu da bildirək ki, Azərbaycan suveren ərazisi olan Qarabağın erməni əhalisinə qarşı heç bir iddia irəli sürmür, əksinə erməni sakinlərin dinc və təhlükəsizlik şəraitində yaşamalarına təminat verir. BMT TŞ-nin əvvəlki toplantılarında da bununla bağlı nüanslar gündəmə gəlmişdi, heç şübhəsiz, bu gün də gələcək. Dünya bir daha əmin olacaq ki, Azərbaycanın özünün Konstitusiya quruluşuna zidd meyillərə qarşı açdığı cəbhə legitimdir, bütövlükdə, ölkəmizin mövqeyi ədalətlidir, beynəlxalq hüquq normalarına tam uyğundur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İkinci kapitulyasiya – Yevlaxa Xankəndinin açarı gətiriləcək

## Qarabağdakı lokal antiterror tədbirlərinin doğurduğu nəticələrə baxış



**Bəli, İkinci Qarabağ müharibədəki kapitulyasiya 44 günə başa gəlmişdisə, ikinci kapitulyasiya haradasa, bir sutkaya tamamlandı. Azərbaycanın Qarabağda apardığı lokal antiterror tədbirləri uğurla yekunlaşdı. Ölkəmiz öz hədəflərinə çatdı. Qurulmuş mükəmməl plan nəticəsində hərbi məqsədlər yerinə yetirildi, həmçinin, siyasi tələblər də ödəndi. Antiterror tədbirləri, eyni zamanda nəyi göstərdi? Bu barədə söz açacağıq.**

***

Birincisi, Azərbaycan qələbə qazandı. Sübut olundu ki, 44 günlük müharibədən sonrakı müddətdə Qarabağa tam sahiblənmək, döyüş əzmi və rəşadəti bütövlükdə cəmiyyətimizin ruhuna hopmuş reallıqdır. Mövcud reallıq qarşısında duruş gətirəcək heç bir qüvvə yoxdur və ola da bilməz. Qələbəni, bütövlükdə, Azərbaycan xalqı qazandı. Bu, birliyimizin, bütövlüyümüzün göstəricisi kimi yadda qaldı. Bir daha sübut olundu ki, cəmiyyətimiz üçün Qarabağ kökləniş son dərəcə vacib və həyati əhəmiyyət daşıyan milli vəhdətin nəticəsidir.

Bəli, "dəmir yumruğ"un yerində olduğu yenidən təsdiqləndi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdı ki, ölkəmiz öz ərazilərində hansısa separatçı birləşmələrin mövcudluğuna dözməyəcək və dözmədiyini göstərdi. Xalqımız onu da göstərdi ki, torpaqlarımızda "boz zona"nın olmasına əsla yol verməyəcək.

***

İkincisi, antiterror tədbirləri nəticəsində Azərbaycan bütün şərtlərini qəbul etdirdi. Qarabağdakı separatçı rejimə, Ermənistan Respublikasına məxsus hərbi birləşmələrin tərksilah olunmasına, ərazidən tamamilə çıxarılmasına dair razılıq əldə olundu. Daha doğrusu, separatçı rejim və havadarları razılaşmağa məcbur oldular. Onların əvvəllər boyun qaçırdıqları görüşə – Yevlaxa gəlmək istəmələrini bildirmələri isə elə ağ bayrağın qaldırılmasıdır. Dövlətimizin başçısının bildirdiyi kimi, boyunlarını bükə-bükə gələcəklər. Ancaq, bu, hələ hər şey demək deyil.

Heç şübhəsiz, növbəti mərhələdə separatçı rejimin buraxılması, onun saxta dövlət atributlarının zibilliyə atılması baş verəcək. Prezident İlham Əliyevin bu il mayın 28-də Laçın rayonu sakinləri ilə görüşdə bildirdiyi kimi: "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz saxta "dövlət atributları"nı zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya, orada "parlament" fəaliyyət göstərir, guya, orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki, hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər".

***

Üçüncüsü, Ermənistanın müdafiəsiz durumda qaldığı sübuta yetirildi. Ayrı-ayrı erməniпərəstlərin nə qədər hay-küy qaldırmalarına rəğmən, beynəlxalq aləmin Qarabağdakı erməni avantürizmini qorumaq üçün heç bir mexanizmi-nin olmadığı aşkarlandı. Ermənistan və erməniпərəstlər, o cümlədən, Qarabağdakı separatçı rejim gördü ki, aciz və çıxılmaz durumdadır. Əslində, dövlətimizin başçısı Laçın rayonunun sakinləri ilə görüşündə bu məqama da toxunmuşdu: "Onu da bildirməliyəm ki, son vaxtlar beynəlxalq təşkilatlar faktiki olaraq bizim mövqeyimizlə tamamilə razılaşıblar. Bunu mən müxtəlif görüşlər əsnasında artıq görürəm. Yəni, nəyə görə razılaşıblar? Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq. Ona görə bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır. Sadəcə olaraq, bizə gələn son mesajlar belədir ki, bəs orada dırnaqarası rəhbərliyin aqibəti necə olacaq? Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır".

Bəli, separatçılara amnistiya düşür ya yox, bunu zaman göstərəcək. Hesab edirik ki, bir çox məsələlər kimi, buna da bu gün Yevlaxda keçiriləcək görüşdən sonra aydınlıq gələcək. Nəzərə alaq ki, bu gün, eyni zamanda, Fransanın tələbi ilə BMT Təhlükəsizlik Şurasında Qarabağ məsələsi müzakirəyə çıxarılacaq. Heç şübhəsiz, avantüristlərin Nyu-Yorkdakı toplantıya ümid bəsləmələri mümkündür. Axı, BMT TŞ Ermənistanın və havadarlarının Qarabağ avantürizmi ilə bağlı son çırpıntısıdır.

***

Dördüncü məqama keçid alaq. Antiterror tədbirləri başlayan gün Ermənistanın baş naziri Nikol Paşinyan bildirmişdi ki, Qarabağda erməni hərbi birləşmələri yoxdur. Dünən həmin hərbi birləşmələrin ərazidən çıxarılması şərtinin yerinə yetiriləcəyinə dair məlumatı Nikolun hökuməti də açıqladı. Bu, Paşinyanın siyasət meydanındakı növbəti qeyri-ciddiliyi idi. Ancaq antiterror tədbirləri qeyri-ciddiliklə yanaşı, erməni siyasi düşüncə tərzindəki daha bir anormallığı üzə çıxardı. Ermənistan Respublikası, faktiki olaraq, Qarabağ ermənilərini taleyin ümidinə buraxdı. Bu, bir xalq üçün son dərəcə böyük faciədir. Eyni zamanda, dövlət üçün də. Bir dövlət ki, öz varlığını Qarabağ amili üzərində qurmuşdu, çətin durumda nəinki həmin amildən, ümumən erməni əhalidən də imtina etdi. Bundan böyük rüsvayçılıq ola bilməz. Mahiyyətcə, 44 günlük müharibə məğlubiyyəti də bu rüsvayçılığın yanında heç nədir.

***

Belə bir deyim var ki, bütün yollar Romaya aparır. Bu deyimi Cənubi Qafqaz müstəvisinə tətbiq etsək, deyə bilərik ki, bütün yollar Yevlaxa aparır. O Yevlaxa ki, bir vaxtlar erməni millətçiləri azərbaycanlıları burayadək qovacaqlarını bildirirdilər. Bu gün Yevlaxa təslim olduqlarını, Azərbaycanın bütün şərtlərini yerinə yetirəcəklərini bildirmək üçün gələcəklər. Gələcəklər ki, separatçı rejimə paytaxt seçdikləri qədim Azərbaycan şəhəri Xankəndinin açarını təqdim etsinlər. Gələcəklər ki, Stepanakertdə deyil, Xankəndidə, Mardakertdə deyil Ağdərədə, Martunidə deyil, Xocavənddə yaşamaq istədiklərini bəyan etsinlər. Əlbəttə, yaşamaq istəyəcəklərsə. Ölməyi deyil, yaşamağı seçəcəklərsə...

*Ə.RÜSTƏMOV*
*XQ*

---

**Gizlinlər aşkar edildi**

**Rusiya və ABŞ münaqişə tərəflərinə müraciət edərək siyasi və diplomatik həll yoluna qayıtmağın zəruriliyini vurğulayıb. Bu barədə "Röyter"agentliyinin yaydığı məlumatda bildirilib ki, Azərbaycan çərşənbə günü etnik ermənilərin nəzarətində olan Dağlıq Qarabağa zərbə endirib.**

Erməniпərəst Qərb ölkələrinin Azərbaycanın lokal antiterror əməliyyatına belə qərəzli münasibətindən aydın olur ki, bəzi ölkələr antiterror əməliyyatları keçirə bilər, Azərbancana isə belə imkan verilməməlidir. Yəni, Ukrayna və Gürcüstan ərazisində suverenliyini bərpa edə bilər, Azərbaycan isə yox? Ukrayna öz ərazisində Rusiya qoşunlarına qarşı mübarizə aparanda KİV-in reaksiyası belə olur: "Yaşasın Ukrayna!". Gürcüstanda oxşar münaqişədə isə "İrəli, Gürcüstan!" yazırdılar.

nəfər olduğu gümən edilən və Ermənistanın maliyyələşdirdiyi bu qeyri-qanuni birləşmələr bölgədəki insanların, o cümlədən, mülki ermənilərin əmlak və həyat təhlükəsizliyini təhdid edir, Azərbaycana qarşı cinayətlər törədirdi. Ona də Azərbaycan dövləti konstitusiyanın müddəalarını həyata keçirmək və regionda yaşayan mülki əhalinin, o cümlədən, öz erməni vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün lokal antiterror tədbirləri həyata keçirdi. Məqsəd isə Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələri-

# Qərb yenə separatçıların yanında oldu

## Azərbaycana antiterror əməliyyatı keçirmək niyə olmaz?



Azərbaycana gələndə Qərbdə fərqli münasibət sərgiləyirlər. Onun öz ərazisində antiterror əməliyyatını keçirməsi xristian aləmində qıcıq yaradır, hay-küyə səbəb olur. ABŞ Hərbi Dəniz Donanması Ali Məktəbinin müəllimi, xarici siyasət üzrə ekspert Brenda Şaffer də elə bunu deyib: "Ancaq Azərbaycan 10 min erməni qoşununu öz ərazisindən çıxarılmasını təmin etmək istəyəndə bu addım bəyənilmir, reaksiya belə olur: "Azərbaycanı dayandırmaq lazımdır. Təsəvvür edirsinizmi, ABŞ dövlət katibi Antoni Blinken Ukraynaya zəng edib, Kiyevdən Krım və ya Donetskdə terrorçulara qarşı hərbi addım atmamağı xahiş etsin?".

Azərbaycan isə öz ərazisində gələcək faciələrin qarşısını almaq üçün antiterror əməliyyatını həyata keçirməli idi. Çünki Ermənistanın qanunsuz silahlı birləşmələrinin Qarabağda olması ən böyük təhlükə idi və təxribatlara müşayiət olunurdu. Təbii ki, Azərbaycanın öz ərazisini xarici hərbi qüvvədən təmizləmək hüququ var. Çünki ən böyük təhlükə qalırdı. ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayzanın bildirdiyi kimi, ən böyük təxribat Ermənistan tərəfdəndir, onun silahlı qüvvələri hələ də Azərbaycan ərazisində, Qarabağda yerləşirdi: Onlar beynəlxalq hüquq normalarına uyğun olaraq 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən Qarabağı tərk etməli idilər. Amma erməni əsgərləri Qarabağı tərk etmədilər".

Əslində, Azərbaycanın Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri Ermənistana müharibə deyil, ölkəmizdə olan və ərazi bütövlüyünü təhdid edən qeyri-qanuni erməni silahlı birləşmələrinə qarşı idi. Təxminən, 10 min nin hazırladığı genişmiqyaslı təxribatların qarşısını almaq, üçtərəfli Bəyanatın tələblərinin həyata keçirilməsini təmin etmək, qeyri-qanuni erməni silahlı birləşmələrini tərksilah etmək və bölgədən çıxarmaq, onların hərbi infrastrukturunu zərərsizləşdirmək idi.

"Röyter" agentliyinin terror əməliyyatı zamanı dinc əhalinin, guya zərər görməsi barədə xəbəri də reallıqdan uzaqdır. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Anar Eyvazov antiterror tədbirlərinin gedişi barədə məlumat verərkən deyib: "Silahlı qüvvələrimiz tərəfindən keçirilən tədbirlər çərçivəsində mülki şəxslər və heç bir mülki obyekt qətiyyən hədəfə alınmır, yalnız legitim hərbi hədəflər bölmələrimiz tərəfindən zərərsizləşdirilir". Bəzi əməliyyatlardan isə mülki şəxslərə zərər vurmamaq üçün son anda imtina edilib.

Azərbaycanın Qarabağda keçirdiyi antiterror əməliyyatı sonda uğurla yekunlaşdı. Düşmən ağ bayraq qaldırmalı oldu. Azərbaycan çoxdan gözlədiyi ədaləti yenidən öz gücü ilə bərpa etdi. Artıq Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri silahı yerə qoyub təslim olurlar. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının təklif etdiyi kimi, ölkə Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə 2023-cü il sentyabr 21-də Yevlaxda görüş keçiriləcək.

*P.ƏFƏNDİYEV*
*XQ*

---

# Qarabağdakı terrorçulara sahib çıxanlar dinc azərbaycanlılara qarşı terrora niyə susurlar?



(əvvəli 4-cü səhifədə)

Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş vermişdi. Hücum nəticəsində hamısı mülki şəxslər olmaqla 16 nəfər şəhid olmuş, 55 nəfər yaralanmışdı. Hücumlar zamanı şəhərin infrastrukturuna, yaşayış və digər binalara, avtomobillərə ciddi ziyan dəymişdi. Ermənistanın bu qanlı hücumu nəticəsində şəhid olanlar və yaralananlar arasında uşaqlar və qadınlar da olmuşdu.

İkinci Qarabağ müharibəsində ümumilikdə Ermənistan tərəfindən Gəncə, Bərdə, Yevlax, Beyləqan, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Xızı və digər şəhər və rayonlarımız ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulub.

Bu hərbi təcavüzlər nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla, ümumilikdə, 93 mülki şəxs həlak olub, 454 vətəndaş yaralanıb, 35 uşaq müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 181 uşaq valideynlərindən birini, 5 uşaq hər iki valideynini itirib, bir ailə isə tamamilə məhv edilib. Ümumilikdə, 12 292 yaşayış və qeyri-yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə ziyan dəyib. Ermənistan terroru nəticəsində həlak olan hər bir dinc sakinlə bağlı cinayət işləri açılıb, beynəlxalq məhkəmələrə, təşkilatlara müraciətlər olunub.

Əlbəttə, Azərbaycan Ordusu bütün bunların cavabını mülki əhali üzərində deyil, döyüş meydanında layiqincə verməyi bacardı. Bu da hər kəsə məlumdur.

Türkiyə Milli Təhlükəsizlik Şurasının üzvü, İstanbul İstinyə Universitetinin professoru, keçmiş millət vəkili İsmayıl Safi hesab edir ki, son aylar özünü "Artsax respublikası" hesab edən qondarma qurumun davranışları dözülməz xarakter almışdı. Qarabağda həm qondarma seçkilərin keçirilməsi, revanşist ritorikanın işə salınması, Azərbaycan qanunlarına, ərazi bütövlüyünə qarşı hörmətsizlik və son olaraq sentyabrın 19-da ağır terror aktlarının törədilməsi antiterror tədbirlərini qaçılmaz etdi.

İ.Safi bildirib ki, əlbəttə, hər zaman olduğu kimi, bu dəfə Türkiyə Azərbaycanın haqq mübarizəsinin yanında oldu və sonadək qardaş ölkəni dəstəklədi: "Yaxşı olar ki, dünya ictimaiyyəti ermənilərin saxta imdad diləmələrinə əhəmiyyət verməkdənsə, üzərindən cəmi 3 il keçmiş, yaraları hələ də soyumamış Gəncə və Bərdə qətliamlarından danışsınlar. Bəzi beynəlxalq qurumlar, bəzi dövlətlər 3 il əvvəl baş vermiş dəhşətli terrora göz yumaraq, susmağa üstünlük verirlər, lakin Azərbaycan dövlətinin öz ərazisində antiterror tədbirləri görməsini qınayırlar. Qardaş Azərbaycan neçə illərdir ki, bu cür ikili standartlarla qarşı-qarşıyadır", – deyə türk siyasətçi əlavə edib.

Şübhəsiz ki, mülki çəxslərin "hədəfə götürülməsinə" dair Qərb siyasi və media dairələrinin iddiaları əsassızdır. Birincisi, bu iddialar erməni tərəfinin yaydığı əsassız və şişirdilmiş məlumatlara əsaslanır. Çünki Azərbaycan Ordusu yalnız hərbi obyektləri hədəfə götürüb. Həm media, həm rabitə vasitəsilə Müdafiə Nazirliyimiz tərəfindən Qarabağdakı erməni əhali məlumatlandırılıb və xəbərdarlıqlar edilib. Azərbaycan heç bir halda mülki əhaliyə xələl yetirməyib. Sərhəd Qoşunları da öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetiriblər. Ancaq mülki erməni əhalinin "təəssübünü" çəkən Qərb siyasətçiləri, nədənsə, 2020-ci ildə Ermənistan SQ tərəfindən mülki əhalinin hədəfə götürülməsi, Gəncə, Bərdə və Tərtərin vəhşicəsinə atəşə tutulması, raket zərbələrinə məruz qoyulmasına nə o vaxt, nə də indi münasibət bildirmək istəməyiblər.

ABŞ-ın Yuta Universitetinin professoru Hakan Yavuz isə erməni separatizminin məğlubiyyətinin qaçılmaz olduğunu bəyan edir. Politoloq XQ-yə açıqlamasında bildirib ki, hərbi xunta son vaxtlar bütün sərhədləri keçmişdi. Bu baxımdan, Azərbaycanın antiterror tədbirlərinə haqq qazandırmamaq olmaz. Amma ermənilər boş dayanmaq istəmir və dünyada məzlum görkəm yaratmaqda davam edirlər. 100 ildən çoxdur ki, erməni məsələsi dünyanı narahat edir. Onları bu sindromdan qurtarmaq olduqca vacibdir.

Siyasi ekspert qeyd edir ki, bu gün ABŞ-dakı erməni lobbisi dayanmaq bilmir. Onlar əsasən Azərbaycan – Türkiyə birlik tandeminin üzərində dayanır, bundan mülki erməni əhalinin zərər gördüyünü təbliğatlarının əsas predmetinə çevirirlər. Lakin hər yerdə, o cümlədən ABŞ-da da rasional düşünən, Azərbaycanın qanuni haqlarını qoruduğunu və mülki əhali ilə heç bir problemi olmadığını yaxından müşahidə edən siyasətçilər də var. Qərəzli kəsim 2020-ci ildə Azərbaycanın Gəncə, Bərdə, Tərtər şəhərlərindəki hadisələri, deyəsən, unudublar. Bir halda ki, mülki əhalinin hüquqlarından danışılır, onda 3 il əvvəl erməni silahlarının Azərbaycan şəhərlərinə atdığı ballistik raketlərdən, çoxsaylı insan tələfatından da danışsınlar. Bu gün atəşkəsin əldə olunması və separatçıların geri çəkilməsi düzgün addım oldu. Bununla erməni tərəfi həm də özünə yaxşılıq etmiş oldu.

Beləliklə, dünya birliyi, beynəlxalq təşkilatlar, xarici dövlətlər tərəfindən bu məsələdə ikili standartlar tətbiqi təəssüf doğurur. Bu günə qədər baş verən erməni terroru görməzdən gəlinir. Dünya siyasətçiləri və ölkələri erməni lobbisinin yalanlarına alət olmamalı, Cənubi Qafqaz barədə raportlarında həqiqəti qeydə almalıdırlar. Yalnız bu zaman regionda gerçək sülh yaratmaq mümkün olar.

*Anar TURAN*
*XQ*

# Xarici ekspertlərdən haqq işimizə dəstək

## Lokal xarakterli antiterror tədbirlərinə yanaşmada onların obyektiv mövqeləri üst-üstə düşür

**Azərbaycanın sentyabrın 19-da öz ərazisində lokal xarakterli antiterror tədbirlərinə başlamasının bir sıra ciddi səbəbləri var idi. Heç şübhəsiz ki, ən başlıca səbəb kimi Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının təmin olunmamasını göstərmək olar. Xüsusilə sazişin Rusiya Federasiyasının sülhməramlı kontingentinin erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilməsini özündə ehtiva edən dördüncü bəndi kağız üzərində qalmışdı.**



Bundan əlavə, Qarabağ iqtisadi rayonunda törədilən təxribatların miqyası son vaxtlar xeyli genişlənmişdi. Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində mövcud olan erməni silahlı qüvvələrinin təxribat-diversiya qrupunun üzvləri ərazilərimizə soxularaq, piyada və tank əleyhinə mina basdırırdılar. Elə sentyabrın 19-da bir ədəd nəqliyyat vasitəsi Xocavənd rayonu ərazisində basdırılmış tank əleyhinə minaya düşərək partlayıb. Bu təxribat nəticəsində 2 nəfər mülki şəxs həlak olub. Eyni gündə, qeyd edilən terrorun baş verdiyi əraziyə yola düşən Daxili İşlər Nazirliyinin 4 əməkdaşı Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda minaya düşərək həyatlarını itirib. Bununla da 44 günlük Vətən müharibəsinin başa çatmasından indiyədək, ümumilikdə, mina qurbanlarının sayı 314 nəfərə çatıb, onlardan 61 nəfər həlak olub.

Həmçinin ərazilərimiz separatçılar tərəfindən vaxtaşırı intensiv atəşə məruz qalırdı. Həm mina terroru, həm də atəşkəs pozuntusu işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhalinin, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçularımızın təhlükəsizliyini ciddi şəkildə təhdid edirdi.

Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılmasının, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsinin və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsinin yeganə yolu bölgədə lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi idi. Belə də oldu. Cəmi bir sutka davam edən əməliyyat nəticəsində Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyaraq təslim oldular. Müdafiə Nazirliyinin dünənki açıqlamasında bildirilib ki, yaraqlılar döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.

Dünən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının açıqlaması yayılıb. Açıqlamada qeyd olunub ki, Prezident Administrasiyasının təklif etdiyi kimi, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə sentyabrın 21-də Yevlaxda görüş keçiriləcək.

Beləliklə, sentyabrın 20-si Azərbaycanın tarixinə daha bir parlaq səhifə kimi düşdü. Həmin gün qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırdılar. Bundan sonrakı mərhələdə bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır. Azərbaycan dövləti bir daha sübut etdi ki, onunla güc yolu ilə danışmaq olmaz. Ölkəmizin ərazisində "boz zonalar" qala bilməz. Əməliyyatın əsas məqsədi mərkəzi hakimiyyətin nəzarətindən kənar ərazilərdə qayda-qanunun və nizamın yaradılması idi ki, buna da nail olundu.

Azərbaycanın qalib dövlət kimi nüfuzu bir qədər də artdı. Rəsmi Bakı indi özünün erməni sakinlərinin ölkənin tamhüquqlu vətəndaşı kimi reinteqrasiyasına çalışır. Rəsmi şəxslərin indiyədək verdikləri açıqlamaları ümumiləşdirərək demək mümkündür ki, ermənilərin təhlükəsizliyi digər etnik azlıqların təhlükəsizliyi kimi Azərbaycan Konstitusiyası və qanunvericiliyi ilə tam təmin ediləcək. Eyni zamanda, ölkənin digər sakinləri kimi ermənilərin də hüquqları ilə yanaşı öhdəlikləri olacaq.

***

Onu da qeyd edək ki, Azərbaycanın apardığı əməliyyat beynəlxalq hüquq normalarına, o cümlədən, beynəlxalq humanitar hüquqa o dərəcədə uyğun, əsaslandırılmış idi ki, heç bir dövlət, hətta Ermənistan da ona qarışmağa cürət etmədi. Çünki Azərbaycan özünün beynəlxalq birlik tərəfindən tanınmış ərazisində əməliyyat həyata keçirirdi. Hədəf isə Ermənistan silahlı qüvvələri birləşmələrinin ön xətdə və dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri idi. Xarici siyasi ekspertlər də ölkəmizin keçirdiyi hərbi əməliyyatların hüquqa uyğun olması məsələsində həmrəydirlər.

**ABŞ Ali Hərbi Dəniz Qüvvələri Məktəbinin pedaqoqu, xarici siyasət üzrə ekspert Brenda Şaffer "X" platformasındakı hesabında Amerika**



**mediası və beyin mərkəzlərinin postsovet məkanındakı münaqişələrə fərqli yanaşmasını qınayıb.** O, "Ukrayna və Gürcüstana öz ərazilərini terrorçulardan təmizləməyə icazə verilir, lakin Azərbaycana olmaz?" deyə ritorik sual verib.

Şaffer vurğulayıb ki, Ukrayna ordusu rus qoşunlarını öz ərazisindən çıxarmaq üçün döyüşəndə medianın "Yaşasın Ukrayna!" reaksiyasını görürük, Gürcüstanda oxşar münaqişə yaşanır və "İrəli, Gürcüstan!" reaksiyasının şahidi oluruq. Onun sözlərinə görə, Azərbaycan on min qanunsuz erməni yaraqlısından ibarət qoşunun öz ərazisindən çıxarılmasını təmin etməyə çalışdığı vaxt göstərilən reaksiya isə "Azərbaycan dayandırılmalıdır!" olur.

Şaffer ABŞ-ın bu məsələlərdə mövqeyinə də toxunub: "Dövlət katibi Antoni Blinkenin Ukraynaya zəng edərək Krımda və ya Donbasdakı terrorçulara qarşı hərbi addım atmamağı Kiyevdən xahiş etməsini təsəvvür edə bilərsinizmi? Amerika Birləşmiş Ştatları ərazi bütövlüyünün toxunulmazlığı prinsipini Azərbaycan məsələsi istisna olmaqla dəstəkləyir".

"Uzun müddətdir davam edən qanlı münaqişəyə son nöqtə qoyulub. Qarabağ Azərbaycanın tam nəzarətinə keçir, ermənilərin qanunsuz silahlı dəstələri, Ermənistan ordusunun hərbi birləşmələri Rusiya sülhməramlı kontingentinin vasitəçiliyi ilə əldə edilmiş razılaşmalara uyğun olaraq, Qarabağı tərk edir və tərksilah olunur".

**Bunu isə Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko deyib.** Politoloq bildirib ki, müasir dövrdə tarixi an yaşanır:




"Biz möhtəşəm hadisənin şahidi oluruq. Yəqin, müasir dövrdə ilk dəfədir ki, əraziləri işğal olunmuş ölkə qələbə qazanıb, oraya qayıdıb və bərpa edib. Ən əsası, bundan sonra keçmişə dönüş olmayacaq".

İ.Korotçenko Prezident İlham Əliyevi görkəmli siyasətçi adlandırıb. Qeyd edib ki, məhz onun şəxsi keyfiyyətləri, strateji düşüncəsi və dəmir iradəsi sayəsində Azərbaycan dövləti Zəfər qazanıb".

Ekspert, həmçinin Azərbaycan ilə Rusiya arasında sıx, yaxşı münasibətlərin və əməkdaşlığın davam edəcəyinə, möhkəmlənəcəyinə ümid bəslədiyini, buna əmin olduğunu bildirib.

O əlavə edib ki, iki ölkə arasında münasibətlərin əsasını xalqların, prezidentlərin uzunmüddətli dostluğu və təbii ki, "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" təşkil edir.

**"Yaxın günlərdə Azərbaycanın Dövlət bayraqları Qarabağın bütün şəhərlərində dalğalanacaq". Bunu Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq Sergey Markov bildirib.**



"Qarabağda hərbi əməliyyatlar dayandırıldı. Erməni hərbi birləşmələri silahlarını təslim edərək Azərbaycan Ordusu və Rusiya sülhməramlılarının yaratdığı humanitar dəhliz vasitəsilə Qarabağı tərk edirlər. Erməni birləşmələri yüzlərlə itki verib. Yaxın günlərdə Azərbaycanın Dövlət Bayraqları Qarabağın bütün şəhərlərində dalğalanacaq. İldırımsürətli lokal antiterror tədbirləri Azərbaycan Prezidenti İlham Əliyev üçün tam uğurla başa çatdı", – deyə rusiyalı ekspert vurğulayıb.

**Rusiya Dövlət Dumasının Beynəlxalq Məsələlər Komitəsinin rəhbəri və Liberal-Demokrat Partiyasının sədri Leonid Slutskinin fikrincə, Ermənistan baş naziri Nikol Paşinyan Qarabağı Azərbaycanın ərazisi kimi tanımaqla əsas işi görüb.** Rusiyalı parlamentari Ermənistanın Avrasiya İqtisadi İttifaqından çıxmasının mümkünlüyü barədə sualı da cavablandırıb. O, bu məsələnin hələ



qaldırılmadığını bildirib. Eyni zamanda, Slutski qeyd edib ki, Ermənistanla əməkdaşlığın üstündən xətt çəkmək hələ tezdir, çünki Paşinyan bütün Ermənistan demək deyil.

***

"Azərbaycanın antiterror tədbiri keçirməsi labüd və zaman məsələsi idi. Çünki mütəmadi şəkildə baş verən təxribatlar azərbaycanlı hərbçilərin və işğaldan azad edilmiş ərazilərin bərpasında çalışan mülki şəxslərin həlak olmasına səbəb olurdu". **Bunu bəyan edən ukraynalı jurnalist, siyasi ekspert Marina Qonçaruk açıqlamasının**



**davamında vurğulayıb ki, qanunsuz erməni hərbi birləşmələri regionda sülhün və sabitliyin bərqərar olmasında əsas maneələrdən biri idi. O bildirib:** "Azərbaycan 44 günlük müharibədən sonra sülh sazişinin imzalanması istiqamətində böyük səylər göstərib və daha sonra regionda vəziyyətin sabitləşməsi, erməni sakinlərin reinteqrasiyası üzrə tədbirlər həyata keçirməyə başlayıb. Amma həmin hərbi birləşmələr həm Qarabağ bölgəsindəki erməni əhalini, həm də bütün Azərbaycanı təhdid edir və vəziyyətin normallaşmasına imkan vermirdi. Azərbaycanın suveren ərazisində yalnız azərbaycanlı hərbçilər ola bilər".

Ekspertin sözlərinə görə, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması təkcə Azərbaycan dövləti üçün deyil, həm də ərazilərinin işğalı, evlərinə qayıda bilməyən qaçqınların problemləri ilə üzləşən digər ölkələr üçün əlamətdar hadisə olub. O əlavə edib ki, uğurlu antiterror tədbirləri və azad olunmuş ərazilərdə reinteqrasiya prosesi separatçılıq və ərazi bütövlüyünə təcavüzlə mübarizədə əhəmiyyətlidir.

M.Qonçaruk deyib: "Azərbaycan postsovet məkanında ərazi bütövlüyünü bərpa edən ilk dövlətdir və Ukraynada dost Azərbaycan xalqının uğurlarına sevinirlər. Qeyd etmək istərdim ki, Ukrayna dövlət müstəqilliyinin bərpa edildiyi 1991-ci ildən başlayaraq, həmişə Azərbaycanın yanında olub və Qarabağla bağlı mövqeyini dəyişmədən dost Azərbaycan xalqını dəstəkləyib. Şübhəsiz ki, qanunsuz, qondarma rejimlərin şəxsi maraqlarını təmin etmək naminə insanların dinc və sakit həyatını əlindən alması faciədir, amma ümidvaram ki, bizim böyük itkilər həsabına qurduğumuz yeni dünya nizamında separatçılığa və ölkələrin ərazi bütövlüyünün pozulmasına yer olmayacaq".

**Gürcü politoloq Tengiz Txilava isə bildirib ki, Azərbaycanın Qarabağda yeni lokal antiterror tədbirlərinə başlamasına həm Ermənistanın, həm də sülhməramlıların məsuliyyətsiz hərəkətləri səbəb olub.**




O deyib ki, antiterror tədbirləri tam qanunauyğun idi: "İlk növbədə ona görə ki, Ermənistan üzərinə öhdəlik götürsə də, 44 günlük müharibədən sonra öz qoşunlarını Qarabağdan çıxarmadı. Regionda sülhməramlı missiyasını öz üzərinə götürən Rusiya da bu işi yerinə yetirmədi. Bu da sabitliyin yenidən pozulmasına gətirib çıxardı. Ona görə də Azərbaycanın antiterror tədbirləri keçirməsi onun suveren hüququ idi".

**Türkiyənin "Ulusal" televiziya kanalının siyasi şərhçisi Yakub Aslan** da Azərbaycanın lokal antiterror tədbirlərinin beynəlxalq hüquqa uyğun



olduğunu deyib. O qeyd edib ki, beynəlxalq hüquqda dövlətin öz ərazi bütövlüyü ilə yanaşı, vətəndaşlarının da təhlükəsizliyini təmin etmək öhdəliyi təsbit olunduğu üçün Azərbaycan dövləti tam haqlıdır: "Təsadüfi deyil ki, heç bir beynəlxalq təşkilat Azərbaycanın antiterror tədbirlərinə qarşı çıxış etmədi".

Y.Aslanın sözlərinə görə, Azərbaycan qalib ölkə kimi Ermənistana sülh, Qarabağ ermənilərinə isə reinteqrasiya, birgəyaşayış təklif etdi. Lakin separatçılar bununla razılaşmadılar: "Yalançı vətənpərvərlik üzərində siyasət quran separatçı rejim tez-tez hərbi təxribatlara əl atmağa başladı. Onlar atəşkəs rejimini pozmaqla, Azərbaycanın göndərdiyi humanitar yardımı yolda saxlamaqla, yalan təbliğat aparmaqla sülh istəmədiklərini açıq-aşkar ortaya qoydular. Belə məsələləri böyük sülhün əldə olunması naminə arxa plana keçirmək olardı. Lakin günahsız sadə vətəndaşların ermənilərin mina terroru nəticəsində həlak olmasına göz yummaq olmazdı. Bu baxımdan, Azərbaycan dövləti lokal xarakterli antiterror tədbirləri keçirmək məcburiyyətində qaldı".

Siyasi ekspert qeyd edib ki, belə tədbirlər dünyanın bir çox dövlətləri tərəfindən həyata keçirilib: "Zamanında Türkiyə, Rusiya, İran, ABŞ, İspaniya, Böyük Britaniya belə addımlar atıb. Bu tədbirlərin məqsədi terrorçuların infrastrukturunu məhv etmək və əhalinin təhlükəsizliyini təmin etməkdən ibarət olur".

"Vəssalam. Kabusun sonu. Daha ölüm olmayacaq. Tezliklə yaraları sağaltmaq və normal həyata qayıtmaq vaxtı gələcək. Qarabağda qalmaq istəyən ermənilər üçün hər şey yaxşı olacaq". Bu fikirləri isə Teleqram kanalında erməni bloger İşxan Verdyan yazıb. O qeyd edib ki. Ermənistandakılar isə oturub düşünsünlər. "Düzdür, onlar həmişə olduğu kimi normal bir şey tapmayacaqlar. Amma bu, artıq məni narahat etmir. Mən Qarabağa, qalan ermənilərlə yaşamağa gedirəm", – deyə İşxan Verdyan bildirib.

*Səxavət HƏMİD*
*XQ*

# Növbəti sosial-iqtisadi inkişaf strategiyası da uğurla gerçəkləşdirilir

**İqtisadiyyat Nazirliyində 2022–2026-cı illərdə ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulan tədbirlərin icrası məqsədilə yaradılan “İqtisadi artım üzrə işçi qrupu”n sentyabrın 19-da keçirilən ilk iclasında iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov adıçəkilən strategiya üzrə layihələrin reallaşdırılmasının dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi tərəqqini şərtləndirdiyini vurğulayıb. O, cari ilin ilk 6 ayı ərzində görülmüş işləri diqqətə çatdıraraq strategiyanın gerçəkləşdirilməsinin səmərəliliyi üçün monitorinq və qiymətləndirmə portalının yaradıldığını da bildirib.**

Xatırladaq ki, dövlət başçısı İlham Əliyev “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi ilə bağlı 2021-ci il fevralın 2-də müvafiq sərəncam imzalayıb. Bununla da sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin təsdiqi ilə iqtisadi inkişafda keyfiyyətcə yeni bir mərhələnin əsası qoyulub və həmin vaxtdan qeyri-neft-qaz sektorunun gücləndirilməsi prioritet istiqamətə çevrilib. Eyni zamanda, sözügedən Milli Prioritetlərdə davamlı və yüksək iqtisadi artıma nail olunması, həmçinin bu nayan dövlətə çevrilib. Azərbaycan ötən illər ərzində beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verib, ölkəmizin təşəbbüsü və iştirakı ilə qlobal layihələr uğurla icra edilib. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaradıb. Bu layihələrin uğurla həyata keçirilməsi ölkəmizin regionda proseslərin inkişaf vektorunu müəyyənləşdirən və dünya iqtisadiyyatında söz sahibi



məsələdə daxili və xarici təsirlərin azaldılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Dövlət başçısı “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında 22 iyul 2022-ci il tarixli sərəncamı da nəzərdə tutulan Milli Prioritetlərin gerçəkləşdirilməsini təmin etmək məqsədilə imzalayıb. Ölkə rəhbəri mühüm önəm daşıyan və 5 illik bir dövrü əhatə edən bu sənədlə planlaşdırılan müəyyən layihələrin əlaqələndirilməsini, reallaşdırılmasına nəzarəti və hesabatlılığını həyata keçirməyi qarşıya mühüm vəzifə kimi qoyub.

“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda bildirilir ki, respublikamız dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oyolan “qlobal oyunçu” statusunu gerçəkləşdirib.

Sosial-iqtisadi inkişafda dövlətin xüsusi rolu, neft sərvətinin dinamik inkişafa səmərəli inteqrasiyası, dövlət investisiyalarının ölkənin suverenliyinin və milli təhlükəsizliyin möhkəmləndirilməsinə, daxili ictimai-siyasi sabitliyin və ictimai konsolidasiyanın təmin edilməsinə yönəldilməsi diqqət mərkəzində saxlanılıb. Bütün bunların nəticəsində cari il iyunun 30-na Azərbaycan Dövlət Neft Fondunun aktivləri ilin əvvəlinə (49 milyard 33,6 milyon ABŞ dolları) nisbətən 12 faiz artaraq 54 milyard 915,1 milyon ABŞ dollarına çatıb. Bu ilin yanvar-iyun ayları ərzində isə Fondun büdcə gəlirləri 11 milyard 701,4 milyon manat, büdcə xərcləri isə 2 milyard 680,8 milyon manat təşkil edib.

Son illərdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilib. Bunun nəticəsidir ki, çoxsaylı mənfi şokların təsiri ilə mübarizə aparan qlobal iqtisadiyyatın həssas olduğu indiki dövrdə qeyri-neft-qaz sənayesində artım neft-qaz sənayesindəki artımı üstələyib. Mövcud sahədə əlavə dəyər 2023-cü ilin ilk 6 ayında 6,5 faiz artıb. Qeyri-neft sektorunda isə 3 faizdən çox artım müşahidə olunub.

Respublikamızın ixrac qabiliyyəti də davamlı şəkildə güclənib, idxalı əvəz edən məhsulların istehsalının artırılması reallaşıb. Bu, statistik göstəricilərdə də öz aydın ifadəsini tapıb. Məsələn, indiyədək mövcud sahədə 10,23 milyard manat dəyərində məhsul satışı həyata keçirilib və onun 3,35 milyard manatlıq hissəsi ixrac edilib. Cari ilin ilk yarısında isə 1,4 milyard manatlıq məhsul satılıb ki, bunun da 33,6 faizi ixracın payına düşüb. İndiyədək sənaye zonalarında ümumi investisiya dəyəri 7,18 milyard manat olmaqla 131 sahibkarlıq subyektinə rezident statusu verilib və onlardan 68-i, yaxud 51,9 faizi istehsal fəaliyyətinə başlayıb. Sənaye zonalarına 6,56 milyard manat investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri açılıb.

Proqnozlar da həyata keçirilən layihələrin gələcəkdə daha yüksək göstəricilərlə müşahidə ediləcəyindən xəbər verir. Məsələn, Asiya İnkişaf Bankı (ADB) bu il Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) ötən illə müqayisədə 2,2 faiz çox olacağını proqnozlaşdırır. Bankın “Asian Development Outlook” hesabatına əsasən, bu, ADB-nin aprel proqnozu ilə müqayisədə 1,3 faiz bəndi azdır. Bank, eyni zamanda, gələn il Azərbaycanda 2,6 faiz iqtisadi artım proqnozlaşdırır ki, bu da əvvəlki gözləntiyə nisbətən 1,2 faiz azdır. ADB, ümumilikdə, Qafqaz və Mərkəzi Asiya regionu iqtisadiyyatının bu il 4,6 faiz (əvvəlki proqnoza nisbətən 0,2 faiz çox), gələn il isə 4,7 faiz (0,1 faiz çox) böyüyəcəyini proqnozlaşdırır.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Ulu öndər Heydər Əliyevin ideyaları əsasında uğurla tərəqqi edən ölkəmiz hazırda sosial-iqtisadi inkşafının əhəmiyyətli mərhələsini yaşayır. Dövlət başçısı İlham Əliyev tərəfindən isə sosial-iqtisadi inkşafın dayanıqlığını reallaşdırmaq üçün 2022–2026-cı illəri əhatə edən sosial-iqtisadi inkşaf strategiyası haqqında müvafiq sərəncam keçən ilin iyun ayında imzalanandan sonra dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik və sosial ədalətli cəmiyyət, rəqabətli insan kapitalı, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış, təmiz ətraf mühüt və “yaşıl artım” ölkəsi kimi 5 əsas priroritetin icrası qarşıda önəmli vəzifələr kimi durur.

Son illər qlobal səviyyədə yaşanılan pandemiya, makro-iqtisadi sabitsizlik və müharibələrə baxmayaraq, ölkəmiz bu böhranları minimal zərərlərlə keçə bilib. Şübhəsiz ki, bunun əsasında uğurlu iqtisadi siyasət dayanır. İndiki halda isə respublikamızın cəbhədə anti-terror əməliyyatları apardığı bir şəraitdə iqtisadi artım mövzusuna diqqət ayırması təqdirə layiqdir. İqtisadiyyat Nazirliyində 2022–2026-cı illərdə ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulan tədbirlərin icrası məqsədilə yaradılan “İqtisadi artım üzrə işçi qrupu”n sentyabrın 19-da keçirilən ilk iclası da bunun bariz ifadəsidir.

Son illər iqtisadiyyatın diversifikasiyası istiqamətində çoxsaylı layihələr həyata keçirilib. 2019-cu ildə Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin, azad iqtisadi zonaların, texnoparkların salınması investisiyaların cəlbini və biznes mühütinin kifayət qədər yaxşılaşdırılmasını şərtləndirib. Azərbaycanın neft strategiyası iqtisadi artımda əsas rol oynasa da, indiki halda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar nəticəsində qeydə alınan göstəricilərlə qeyri-neft sektorunun payı neft-qaz sektorunu üstələyib. Belə ki, qeyri-neft-qaz sektoruun ÜDM-dəki payı 2011-ci ildəki 48,8 faizdən 2023-cü ildə 66 faizə yüksəlib. 2024-cü ildə isə bu göstəricinin 68 faizə yüksələcəyi proqnozlaşdırılıb. Qeyri-neft-qaz sektorunun payının artmasında istehlakçı fəallığının genişlənməsi və düşməndən təmizlənən torpaqarda yeni layihələrin icrası və infrastruktur investisiyaları əhəmiyyətli rol oynayıb.

## Naxçıvanın inkişafına dair Tədbirlər Planı təsdiq edilib

**Nazirlər Kabineti “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı”nı təsdiq edib.**



Bununla bağlı baş nazir Əli Əsədov yeni sərəncam imzalayıb. Maliyyə və İqtisadiyyat nazirlikləri, Prezidentin Naxçıvandakı səlahiyyətli nümayəndəliyi və muxtar respublikanın Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələlərin həll elməsi tapşırılıb.

Tədbirlər Planında 2023–2024-cü illərdə muxtar respublikada sahibkarlara güzəştli kreditlərin verilməsi ilə bağlı məqsədli limitin ayrılması nəzərdə tutulur. Sənəddə bu məsələ ilə bağlı icraçı qurumun Kənd Təsərrüfatı Nazirliyi olduğu bildirilir.

Bundan başqa, muxtar respublikada sahibkarlıq subyektlərinin güzəştli maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə təşviqat tədbirlərinin həyata keçirilməsi, sahibkarlıq subyektlərinin (sahibkarların) dövlətin güzəştli maliyyə dəstəyi mexanizmləri barədə məlumatlılıq səviyyəsinin artırılması məqsədilə tədbirlərin həyata keçirilməsi də planlaşdırılır. Eyni zamanda, Tədbirlər Planında muxtar respublikada azad iqtisadi zonanın yaradılması ilə bağlı qanun layihəsinin gələn il hazırlanaraq təqdim olunacağı vurğulanır.

## Azərbaycan qazının yarıdan çoxu Bakı–Tbilisi–Ərzurum kəməri ilə nəql olunur

**Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-avqust aylarında Azərbaycandakı magistral təbii qaz kəmərləri ilə 27 milyard 110 milyon kubmetr təbii qaz nəql edilib və əvvəlki ilin eyni aylarına nisbətən 6,2 faiz artım müşahidə olunub.**



Həmin dövrdə qaz nəqlinin 53,8 faizi Bakı–Tbilisi–Ərzurum (Cənubi Qafqaz Boru Kəməri – CQBK) boru kəməri vasitəsilə həyata keçirilib və bu kəmərlə 14,5 milyard kubmetr təbii qaz ixrac edilib.

***XQ***




## “Türk iqtisadi icmalı”nın növbəti sayı

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) hazırladığı “Türk iqtisadi icmalı”nın 2023-cü ilin birinci yarımilliyinə həsr olunan sayı təqdim edilib.**

İki bölmədən ibarət icmalın bu sayının ilk hissəsində Türk Dövlətləri Təşkilatının (TDT) üzv və müşahidəçi ölkələrinə dair ümumi baxış verilib, onların ərazisi, əhalisi, ümumi daxili məhsulu (ÜDM) və ticarət dövriyyəsi üzrə ümumiləşdirilmiş göstəricilər və dünyadakı payı təsvir edilib, türk ölkələrinin ayrı-ayrılıqda ÜDM artımının müqayisəsi aparılıb. Həmçinin türk dünyasından keçən mövcud və planlaşdırılan nəqliyyat dəhlizləri əks etdirilib. TDT-yə daxil olan üzv və müşahidəçi ölkələrin bütövlükdə əhatə edildiyi icmal 8 dildə təqdim olunub.

İcmalın TDT-nin üzv və müşahidəçi dövlətlərinə ümumi baxış statistikasında göstərilib ki, 2022-ci il üzrə türk dövlətlərinin ÜDM-i 1 trilyon 537 milyard dollar, ticarət dövriyyəsi isə 1 trilyon 193 milyard dollar təşkil edib. 2023-cü ilin ilk yarımilliyində Türkiyə iqtisadiyyatı 3,8 faiz, Azərbaycan 0,5 faiz, Özbəkistan iqtisadiyyatı 5,6 faiz, Qırğızıstan iqtisadiyyatı 3,9 faiz, Qazaxıstan iqtisadiyyatı isə 5,1 faiz böyüyüb.

TDT-yə müşahidəçi olan Macarıstanda isə 2023-cü ilin ilk yarımilliyində 2,4 faiz iqtisadi geriləmə qeydə alınıb. Dövlət büdcəsinin gəlirlərinin artımı baxımından ən yaxşı göstərici 48,6 faizlə Türkiyədədir. Qardaş ölkənin dövlət büdcəsinin gəlirləri 2023-cü ilin ilk yarımilliyində 72 milyard 204 milyon dollar olub. Xarici ticarətdə ən yüksək saldoya Qazaxıstan (ticarət balansı 8 milyard 740 milyon dollar və Azərbaycan (ticarət balansı 6 milyard 557 milyon dollar) malikdir. 2023-cü ilin ilk yarımilliyi ərzində TDT-yə üzv ölkələrin hər birində əsas kapitala yönələn vəsaitlərdə artım müşahidə edilir.

Qeyd edək ki, “Türk iqtisadi icmalı”nın ikinci bölməsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Macarıstanın 2023-cü ilin ilk yarımilliyi üzrə, Şimali Kipr Türk Respublikasının isə 2021-ci il üzrə əsas makroiqtisadi göstəriciləri müqayisəli şəkildə verilib.

***XQ***

# Xarici ticarətin coğrafiyası genişlənir

## Ölkəmiz 190 dövlətlə mal mübadiləsi aparır

**Son illər ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin səmərəsi getdikcə artır. Qeyri-neft sektoru üzrə mövcud potensialın hərəkətə gətirilməsi ölkə iqtisadiyyatında əlavə dəyərin yaradılması üçün geniş imkanlar yaradır. Bundan əlavə, azad sahibkarlığa və təşəbbüskarlığa geniş meydan verilməsi ölkədə yeni, müasir texnologiyalar əsasında rəqabətqabiliyyətli məhsulların istehsalına səbəb olur. Bu səbəbdən də hazırda əksər dünya dövlətləri, həmçinin beynəlxalq nüfuzlu təşkilatlar Azərbaycanda həyata keçirilən iqtisadi islahatları, ölkəmizdə baş verən dinamik inkişafı bəyənir, təqdir edirlər.**



Azərbaycanın iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun getdikcə artması isə, öz növbəsində, xarici ticarət dövriyyəsinin genişlənməsinə təkan verir. Məhz bunun nəticəsidir ki, ölkəmizin xarici ticarət əlaqələrinin coğrafiyası ildən-ilə genişlənir. Belə ki, cari ilin yanvar-iyul aylarında Azərbaycan Respublikası dünyanın 190 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları aparıb. Hesabat dövründə Azərbaycan istehsalı olan məhsullar planetin 111 ölkəsinə ixrac olunub. Bununla yanaşı, ilin 7 ayında da 181 ölkə ilə idxal əməliyyatları həyata keçirilib.

Dövlət Statistika Komitəsindən XQ-yə verilən məlumata görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar-iyul aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 26 milyard 333,2 milyon ABŞ dolları təşkil edib. Ümumi ticarət dövriyyəsinin 16 milyard 776,7 milyon dolları ixracın, 9 milyard 556,5 milyon dolları isə idxalın payına düşüb. Xarici ticarət əməliyyatlarında ixracın həcminin xeyli artması nəticəsində ilin 7 ayı ərzində əmtəə dövriyyəsində 7 milyard 220,2 milyon dollarlıq müsbət saldo yaranıb. Göründüyü kimi, ötən ilin yanvar-iyul ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 14,2 faiz azalsa da, real ifadədə 1,4 faiz artıb. O cümlədən idxal real ifadədə 8 faiz artıb, ixrac isə 0,7 faiz azalıb.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, ölkənin xarici ticarət dövriyyəsinin 31,6 faizi İtaliya, 15,6 faizi Türkiyə, 8,1 faizi Rusiya, 5,3 faizi Çin, hər biri 3,2 faiz olmaqla Almaniya və Yunanıstan, 2,8 faizi İsrail, 2,6 faizi Hindistan, 2,4 faizi İspaniya, hər biri 1,9 faiz olmaqla Çexiya və Türkmənistan, 1,7 faizi Gürcüstan, hər biri 1,5 faiz olmaqla Rumıniya və Fransa, 1,3 faizi İrlandiya, hər biri 1 faiz olmaqla Xorvatiya,Birləşmiş Krallıq və ABŞ, 0,9 faizi İran, 11,5 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb.

Bu ilin 7 ayında ümumi ixracın 44,9 faizini İtaliyaya, 16,5 faizini Türkiyəyə, 4,6 faizini Yunanıstana, 4 faizini İsrailə, 3,4 faizini Rusiyaya, hər biri 3,2 faiz olmaqla Hindistan və İspaniyaya, 2,5 faizini Çexiyaya, 2,2 faizini Gürcüstana, hər biri 2,1 faiz olmaqla Rumıniya və Almaniyaya, 1,8 faizini İrlandiyaya, 1,5 faizini Xorvatiyaya, 1 faizini Bolqarıstana, 0,8 faizini Vyetnama, 0,7 faizini Avstriyaya, hər biri 0,6 faiz olmaqla Fransa və Birləşmiş Krallığa, 4,3 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil edib.

Bununla belə, mövcud ixrac əməliyyatları ölkəmizin iqtisadi potensialını tam əks etdirmir. Məhz buna görə də son illər Azərbaycan özünün ticarət tərəfdaşları ilə bu sahədə əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini artırır. Bu baxımdan dövlət rəhbərlərinin qarşılıqlı səfərləri, eləcə də hökumətlərarası iqtisadi komissiyaların birgə iclasları xüsusi əhəmiyyət kəsb edir.

Yanvar-iyul aylarında ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,1 faizi Rusiyanın, 16,3 faizi Çinin, 13,8 faizi Türkiyənin, 5,8 faizi Almaniyanın, 5,4 faizi Türkmənistanın, 3,3 faizi Fransanın, 3 faizi ABŞ-ın, 2,8 faizi İranın, 2,6 faizi İtaliyanın, hər biri 2,5 faiz olmaqla Koreya və Yaponiyanın, 1,9 faizi Birləşmiş Krallığın, hər biri 1,8 faiz olmaqla Belarus və Qazaxıstanın, 1,4 faizi Ukraynanın, hər biri 1,3 faiz olmaqla Braziliya və Hindistanın, 1 faizi Polşanın, 0,8 faizi Vyetnamın, hər biri 0,7 faiz olmaqla Niderland, İspaniya, Özbəkistan və Gürcüstanın, 9,8 faizi isə digər ölkələrin payına düşüb.

Ölkəmizdə davam etdirilən çevik iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlər, eləcə də işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialının hərəkətə gətirilməsi qeyri-neft sektoruna bir dinamizm, inkişaf gətirib. Məhz bunun nəticəsidir ki, son illər Azərbaycanda qeyri-neft məhsullarının istehsalında artım müşahidə edilir. Bu da ixracın strukturunda qeyri-neft məhsullarının xüsusi çəkisinin artmasına səbəb olur.

2023-cü ilin yanvar-iyul aylarında mühüm məhsul növlərindən təzə meyvə, təzə tərəvəz, şəkər, meyvə və tərəvəz şirələri, meyvə və tərəvəz konservləri, təbii üzüm şərabları və üzüm suslosu, marqarin, qida üçün yararlı digər qarışıqlar, polipropilen, polietilen, emal olunmamış alüminium, sement klinkerləri, qara metallardan çubuqlar, qara metallardan borular, pambıq ipliyi və bentonit gilinin ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə artıb. Hesabat dövründə kartof, çay, tütün, bitki yağları, pambıq lifi, mineral gübrələr və qara metallardan yarımfabrikatların ixracında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən azalma qeydə alınıb.

Cari ilin 7 ayında buğda, xam şəkər, unlu qənnadı məmulatları, şokolad və şokolad məhsulları, mal əti, siqaretlər, minik avtomobilləri, dərman vasitələri, polad prokatı, qara metallardan borular, hesablama maşınları, blok və qurğuları, rezin şinlər, yük avtomobilləri, sintetik yuyucu vasitələr, mebellər, polietilen, mineral gübrələr, paltaryuyan maşınlar, polipropilen, qara metallardan künclüklər və məişət soyuducularının idxalı əvvəlki ilin eyni dövrünə nisbətən artıb. Bununla belə, təzə meyvə, bitki yağları, kərə yağı, digər süd yağları və pastaları, çay, quş əti və onun əlavə məhsulları, kartof, təzə tərəvəz, məişət kondisionerləri, qara metallardan çubuqlar, avtobuslar və sementin idxalı isə əksinə, azalıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Antiterror tədbirləri başa çatdı – 23 saat 48 dəqiqənin hökmü

## Müdafiə Nazirliyinin məlumat bülleteni

Sentyabrın 19-dan başlayaraq, Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri uğurla davam edib. Müdafiə Nazirliyindən bildirilib ki, Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus döyüş mövqeləri, hərbi təyinatlı avtomobillər, artilleriya və zenit-raket qurğuları, radioelektron mübarizə stansiyaları və digər hərbi təyinatlı vasitələr zərərsizləşdirilib.

*

Ermənistan silahlı qüvvələri birləşmələrinin strateji əhəmiyyətli yüksəkliklərdə yerləşən hərbi obyektləri və döyüş texnikası dəqiq atəş zərbələri ilə məhv edilib.

*

Ermənistanın bəzi sosial media hesablarında, guya, Silahlı Qüvvələrimiz tərəfindən yenidən Xankəndi şəhərinə atəş açılması barədə yayılan məlumatlar həqiqəti əks etdirmir və dezinformasiya məqsədi daşıyır: “Yayılan bu məlumatı qəti surətdə təkzib edirik. Bir daha bildiririk ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bölmələri yalnız legitim hərbi obyektləri və hərbi infrastrukturu yüksək dəqiqliyə malik silahlarla hədəfə alır və sıradan çıxarır”.

*

Sentyabrın 20-si saat 10:00 radələrində Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərib. Bölmələrimizin sayıqlığı nəticəsində kvadrokopter aşkar edilərək xüsusi texniki vasitələrlə endirilib.

*

Ermənistanın bəzi sosial media hesablarında Laçın yolu ilə Rusiya sülhməramlı kontingentinin müşayiəti altında hərəkət edən mülki kolonun guya Silahlı Qüvvələrimiz tərəfindən atəşə tutulması barədə yayılan məlumatın heç bir əsası yoxdur və dezinformasiya xarakteri daşıyır: “Bu əsassız iddianı qəti surətdə təkzib edirik”.

*

Sentyabrın 20-də Müdafiə Nazirliyi tərəfindən media nümayəndələri üçün növbəti brifinq keçirilib.Nazirliyin mətbuat xidmətinin rəisi polkovnik Anar Eyvazov brifinqdə çıxış edərək Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirlərinin davam etdirildiyini bildirib. O, qeyd edib ki, keçirilən tədbirlər zamanı Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus minaatan mərmisi ilə dolu 6 ədəd “Ural” markalı hərbi avtomobil və 4 ədəd minaatan Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qənimət olaraq ələ keçirilib.



Ermənistanın beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaq məqsədilə sosial media hesablarında kütləvi şəkildə paylaşılan müxtəlif xarakterli dezinformasiyalara, o cümlədən Silahlı Qüvvələrimizin, guya, mülki avtomobilləri, təcili tibbi yardım maşınlarını atəşə tutması barədə yaydıqları yalan məlumatlara cavab olaraq A.Eyvazov vurğulayıb ki, bu əsassız iddiaları müasir dövrümüzdə mövcud informasiya texnologiyasından faydalanaraq sübut etmək olardı: “Belə ki, əgər qarşı tərəfin iddialarının real əsası olsa idi bununla bağlı sosial media resurslarında foto və ya videogörüntülər təqdim olunardı. Onu da qeyd edim ki, beynəlxalq ictimaiyyətdə yanlış fikir formalaşdırmaq məqsədilə qarşı tərəfin özləri tərəfindən planlı şəkildə bu kimi cinayətləri həyata keçirməsi və bununla Azərbaycan tərəfini ittiham etməsi ehtimalı da istisna edilmir.

Silahlı Qüvvələrimiz tərəfindən keçirilən tədbirlər çərçivəsində mülki şəxslər və heç bir mülki obyekt qətiyyən hədəfə alınmır, yalnız legitim hərbi hədəflər bölmələrimiz tərəfindən zərərsizləşdirilir.

Digər vacib bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Döyüş sursatları tükənən Ermənistan silahlı qüvvələrinin birləşmələri uzun müddətli fortifikasiya qurğularını tərk edərək yaşayış məntəqələrində yenidən tərtiblənir, eyni zamanda, Qarabağ bölgəsindəki dinc əhalini məcburi qaydada silahlandıraraq döyüş mövqelərinə cəlb etməyə çalışırlar.

Bir daha Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələrini silahı yerə qoymağa və təslim olmağa çağırırıq və bildiririk ki, yalnız bu halda antiterror tədbirləri dayandırılacaq.





Eyni zamanda, bölgədə yaşayan erməni sakinlərinə Ermənistan silahlı qüvvələrinin birləşmələrinə yaxın durmamağa və onlara dəstək olmamağa çağırırıq. Hərbi qulluqçularımız bu çağırışlarımızı çap edilmiş məlumat vərəqələrində müxtəlif vasitələrlə yerli əhaliyə və silahlılara çatdırır.

Bundan başqa, Ermənistanın bəzi sosial media hesablarında, guya, Silahlı Qüvvələrimiz tərəfindən erməniəsilli sakinləri təxliyə edən Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinə məxsus mövqenin və müşayiət etdiyi mülki kolonun atəşə tutulması barədə yayılan məlumatlar yalandır və dezinformasiya xarakteri daşıyır. Belə əsassız iddialara cavab olaraq bildirirəm ki, sülhməramlı kontingent ilə davamlı şəkildə operativ qaydada təmasdayıq və onların öz vəzifələrini icra etmələri üçün tərəfimizdən zəruri şərait yaradılır.

Hazırda Silahlı Qüvvələrin lokal xarakterli antiterror tədbirləri davam etdirilir. Mövcud şərait bölmələrimizin nəzarəti altındadır. İctimaiyyətə bundan sonra da mütəmadi olaraq əlavə məlumat veriləcək”.

*

Ermənistanın beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaq məqsədilə sosial media hesablarında kütləvi şəkildə paylaşılan müxtəlif xarakterli dezinformasiyalara, o cümlədən Silahlı Qüvvələrimizin, guya, mülki avtomobilləri, təcili tibbi yardım maşınlarını atəşə tutması barədə yaydıqları yalan məlumatlara cavab olaraq bildirmək istəyirəm ki, bu əsassız iddiaları müasir dövrümüzdə mövcud olan informasiya texnologiyalarından faydalanaraq sübut etmək olar. Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Anar Eyvazov deyib: “Əgər qarşı tərəfin iddialarının əsası olsa idi, hazırkı dövrə qədər bununla bağlı sosial media hesablarında foto və videogörüntülər paylaşılardı. Beynəlxalq ictimaiyyətdə yanlış fikir formalaşdırmaq məqsədilə qarşı tərəfin özləri tərəfindən planlı şəkildə bu kimi cinayətləri həyata keçirməsi, bununla da Azərbaycanı ittiham etməsi də istisna edilmir”.

*

Hərbi qulluqçularımız çağırışlarımız çap edilmiş məlumat vərəqələrini antiterror tədbirlərinin keçirildiyi ərazidə paylayırlar. Həmin müraciət vərəqləri iki müxtəlif tərtibdə təşkil olunub. Müraciət və çağırışlarımız səsgücləndiricilərlə həm silahlılara, həm də mülki sakinlərə çatdırmağa çalışırlar. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Anar Eyvazov belə deyib.

*

Ermənistanın bəzi sosial media hesablarında Laçın yolu ilə Rusiya sülhməramlı kontingentinin müşayiəti altında hərəkət edən mülki kolonun, guya, Silahlı Qüvvələrimiz tərəfindən atəşə tutulması barədə yayılan məlumatın heç bir əsası yoxdur və dezinformasiya xarakteri daşıyır: “Bu əsassız iddianı qəti surətdə təkzib edirik”.

*

Müdafiə Nazirliyi tərəfindən media nümayəndələri üçün növbəti brifinq keçirilib. Nazirliyin mətbuat xidmətinin rəisi, polkovnik Anar Eyvazov brifinqdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri barədə indiyədək olan məlumatları diqqətə çatdırıb. O, bildirib ki, tədbirlər çərçivəsində qarşı tərəfə məxsus növbəti hərbi təyinatlı texnika, döyüş mövqeləri və sığınacaqlarının zərərsizləşdirilməsi həyata keçirilib. Bununla bağlı videomateriallar mütəmadi olaraq ictimaiyyətə təqdim olunub.

Bu saata olan məlumata əsasən, Ermənistan silahlı qüvvələri birləşmələrinin tərtibləndiyi 90-dan artıq döyüş mövqeyi, eləcə də bir neçə strateji əhəmiyyətli yüksəklik Silahlı Qüvvələrimizin nəzarətinə keçirilib. Eyni zamanda, qarşı tərəfə məxsus 7 ədəd hərbi nəqliyyat vasitəsi, 4 ədəd minaatan, 1 ədəd tank, 2 ədəd piyadanın döyüş maşını (PDM) və xeyli sayda silah-sursat Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qənimət olaraq ələ keçirilib.

Qeyd olunub ki, silah-sursatı tükənən Ermənistan silahlı qüvvələri birləşmələrinin hərbi qulluqçuları pərakəndə şəkildə təşviş içində döyüş mövqelərini tərk edirlər. Bu faktlar təqdim etdiyimiz videoda da əksini tapıb.

Tədbirlər zamanı Ermənistan tərəfinin mütəmadi olaraq müxtəlif məzmunlu yalan məlumatlar yaydığını söyləyən Anar Eyvazov ictimaiyyətə, media mənsublarına və sosial media istifadəçilərinə qarşı tərəfin dezinformasiyalarına əhəmiyyət verməməyi və Müdafiə Nazirliyi tərəfindən paylaşılan rəsmi məlumatlara istinad etməyi tövsiyə edib.

Diqqətə çatdırıb ki, lokal xarakterli antiterror tədbirlərinin davam etdiyi günlərdə bəzi sosial media hesablarında Silahlı Qüvvələrimizə yardım adı altında əhaliyə çağırışlar edilir. Vətəndaşlardan müxtəlif yardım kampaniyalarına qoşulmaqla pul və ərzaq istənilir. Müdafiə Nazirliyi rəsmi olaraq vətəndaşları belə çağırışlara reaksiya verməməyi tövsiyə edib.

Məlumat verilib ki, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, həmçinin ərzaq və digər təminatın daha da yaxşılaşdırılması üçün bütün zəruri işlər görülüb, bölmələrimizin istənilən şəraitdə normalara uyğun və fasiləsiz təminatı istiqamətində zəruri tədbirlər planlı şəkildə həyata keçirilir.

Sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyinin açıqlaması iştirakçılara çatdırılıb. Bildirilib ki, Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub:

**1.** Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

**2.** Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

**3.** Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.

*

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Qarabağ iqtisadi rayonunda keçirdikləri lokal xarakterli antiterror tədbirləri çərçivəsində qarşı tərəfə məxsus növbəti hərbi təyinatlı texnika, döyüş mövqeləri və sığınacaqların zərərsizləşdirilməsi həyata keçirilib. “Bu saata qədər olan məlumata görə, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərtibləndiyi 90-dan artıq döyüş mövqeyi, eləcə də bir neçə strateji əhəmiyyətli mövqelər Silahlı Qüvvələrimiz tərəfindən nəzarətə götürülüb. Qarşı tərəfə məxsus 7 ədəd hərbi nəqliyyat vasitəsi, dörd ədəd minaatan, bir ədəd tank, iki ədəd piyadanın döyüş maşını və xeyli sayda silah-sursat Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qənimət olaraq ələ keçirilib”.

*

Silah-sursatı tükənən Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları pərakəndə şəkildə, təşviş içində döyüş mövqelərini tərk edirdilər: “Ordumuzun texniki vasitələrinin, eləcə də müşahidə vasitələrinin nəzarəti altında həmin şəxsi heyətin geriyə çəkilməsi və könüllü şəkildə döyüş mövqelərini tərk etməsi üçün də şərait yaradılır. Onlara bu halda heç bir zərbə endirilməyib”.

*

Lokal xarakterli antiterror tədbirlərinin davam etdiyi günlərdə bəzi sosial media hesablarında Silahlı Qüvvələrimizə yardım adı altında əhaliyə çağırış edirlər. Vətəndaşlardan müxtəlif yardım kampaniyalarına qoşulmaları, o cümlədən pul və ərzaq istənilir. Müdafiə Nazirliyi rəsmi olaraq vətəndaşları belə çağırışlara reaksiya verməməyi tövsiyə edir. Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, həmçinin ərzaq və digər təminatının daha da yaxşılaşdırılması üçün bütün zəruri tədbirlər həyata keçirilib.

**XQ**

# Ceyhun Bayramovun Nyu-York görüşləri

### İƏT-in Baş katibi ilə bölgədəki vəziyyətin müzakirəsi

**BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov dünən İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Taha ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən redaksiyamıza bildirilib ki, söhbətdə də Azərbaycan və İƏT arasında mövcud əməkdaşlıq gündəliyi, cari ilin sonunda Qambiyada keçiriləcək İƏT-in Zirvə görüşünə hazırlıq məsələləri, habelə bölgədə cari vəziyyət müzakirə olunub.



Nazir Ceyhun Bayramov, Azərbaycanın İƏT-ə üzv olduğundan bəri təşkilatla qurulan sıx əməkdaşlıqdan məmnunluqla bəhs edərək, bu xüsusda İƏT-in hər zaman ölkəmizin ərazi bütövlüyü və suverenliyi ilə bağlı ədalətli mövqedən çıxış etməsini minnətdarlıqla xatırlayıb. XİN başçısı bölgədə mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Azərbaycanın Qarabağ bölgəsində mövcud erməni silahlı birləşmələrinin bölgədəki sülh və stabilliyə əsas təhdid mənbəyi olduğu, bu xüsusda, baş verə biləcək təxribatların qarşısının alınması, habelə vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması məqsədilə lokal xarakterli antiterror tədbirlərinin həyata keçirildiyi diqqətə çatdırılıb. Azərbaycanın suveren torpaqlarında 30 illik işğal dövründən qalma, milli qanunvericilik və beynəlxalq hüquqazidd olan hər hansı hərbi mövcudluğun qəbuledilməz olduğu, bu xüsusda tərəfimizdən görülən tədbirlərin bu qanunsuz qüvvələrin çıxarılmasına və qondarma rejimin buraxılmasına istiqamətləndiyi vurğulanıb.

Baş katib Hissein Brahim Taha, İƏT-in ölkəmizin suverenliyi və ərazi bütövlüyünü tam şəkildə dəstəklədiyini diqqətə çatdıraraq, bölgədə sabitliyin bərqərar edilməsi istiqamətində göstərilən səylərin dayanıqlı sülh quruculuğu prosesində əhəmiyyətli rolu olduğunu bildirib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

### İsrail – Azərbaycan əməkdaşlığı uğurlu məcrada

**Sentyabrın 20-də xarici işlər naziri Ceyhun Bayramov Nyu-Yorkda İsrail Dövlətinin xarici işlər naziri Eli Kohen ilə də görüş keçirib. Nazirlər strateji xarakter daşıyan ikitərəfli münasibətlərin bütün spektrləri, habelə beynəlxalq və regional məsələlər üzrə müxtəlif səviyyələrdə siyasi dialoqun bundan sonra da fəal surətdə inkişaf etdirilməsinə hazır olduqlarını ifadə ediblər.**

İki ölkə arasında iqtisadi, təhlükəsizlik, turizm, təhsil, ticarət, yüksək texnologiyalar və digər sahələrdə dərin əməkdaşlıq əlaqələrinin qurulduğu məmnunluq hissi ilə qeyd olunub və bu xüsusda, Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın uğurlu fəaliyyəti təqdir edilib. Azərbaycanın İsraildə Ticarət və Turizm nümayəndəliklərinin açılmasının, habelə səfirliyinin təsis edilməsinin ikitərəfli əməkdaşlığın inkişafına bundan sonra da töhfə verəcəyinə əminlik ifadə olunub.

Nazir Ceyhun Bayramov Ermənistan və onun yaratdığı qondarma rejim tərəfindən həyata keçirilən hərbi-siyasi təxribatlar barədə qarşı tərəfə ətraflı məlumat verib və bu təxribatlara cavab olaraq qanunsuz erməni silahlı qüvvələrinə qarşı həyata keçirilən antiterror tədbirlərinin əsas məqsədinin bölgədə sülh və sabitliyin bərqərar olunması, qanunsuz qüvvələrin tərk-silah edilməsi və qondarma rejimin buraxılması olduğunu diqqətə çatdırıb.

İsrail Dövlətinin xarici işlər naziri Eli Kohen ölkəsinin Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu qeyd edib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

### Latviyalı nazir məlumatlandırılıb

**Azərbaycanın xaricin işlər naziri Ceyhun Bayramov BMT kluarlarında Latviya Respublikasının xarici işlər naziri Krişyanis Karins ilə də görüşüb. İki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.**

Ceyhun Bayramov bölgədə mövcud vəziyyət, Azərbaycan tərəfindən Qarabağ bölgəsində keçirilən antiterror tədbirlərinin nəticələri barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Sözügedən tədbirlər nəticəsində bölgədə sülh və təhlükəsizliyə hədə olan qeyri-qanuni erməni silahlı birləşmələrinin buraxıldığı diqqətə çatdırılıb. Görülən antiterror tədbirləri çərçivəsində mülki şəxslərin hədəf alınmadığı, bu xüsusda onların təhlükəsizliyinin təmini istiqamətində öncədən bütün lazımi tədbirlərin görüldüyü bildirilib.

Nazir Ceyhun Bayramov, beynəlxalq hüquq və 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata zidd olaraq suveren ərazilərimizdə mövcudluğunu davam etdirən qeyri-qanuni qüvvələrin buraxılmasının həm də Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin də cəmiyyətimizə reinteqrasiyası prosesinin qarşısında duran ən böyük çağırışın aradan qaldırılması olduğunu vurğulayıb. Bu xüsusda, Azərbaycanın erməni sakinlərin hüquq və azadlıqlarının, onların təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və tərəfdar çıxdığı beynəlxalq mexanizmlər əsasında təmin etmək əzmində olduğu diqqətə çatdırılıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində Lixtenşteynin xarici işlər, təhsil və idman naziri Dominik Hasler və Şimali Makedoniya Respublikasının xarici işlər naziri və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) fəaliyyətdə olan sədri Buyar Osmani ilə görüşüb.

**XQ**

# Azərbaycan MN həlak olmuş sülhməramlılarla bağlı başsağlığı verib

**Sentyabrın 20-si Canyataq yaşayış məntəqəsi yaxınlığında Rusiya Federasiyasının sülhməramlı kontingentinə məxsus UAZ Patriot avtomobilinin atəşə tutulması nəticəsində sülhməramlı kontingentin hərbi qulluqçularının faciəvi şəkildə həlak olması faktı qeydə alınıb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə verilən məlumata görə, hadisənin başvermə səbəblərini araşdırmaq üçün Azərbaycan və Rusiyanın istintaq orqanları yerində əməkdaşlıq şəraitində çalışırlar.

“Baş vermiş hadisədən təəssüf hissi keçirir, Rusiyanın Müdafiə Nazirliyinin rəhbərliyi, Rusiya sülhməramlı kontingentinin komandanlığı və həlak olmuş hərbi qulluqçuların ailələri və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyirik”, - məlumatda qeyd edilib.

# “Əsrin müqaviləsi” – Heydər Əliyev zəkasının və iradəsinin təntənəsi

**Başlanğıcını 1994-cü il sentyabrıpn 20-də ümummilli lider Heydər Əliyevin dərin zəkası və möhkəm iradəsi nəticəsində imzalanmış “Əsrin müqaviləsi”ndən götürmüş Neftçilər Günündə ölkəmizdə keçirilən çoxsaylı tədbirlərin, mediada yayılan bir sıra yazıların əsas mövzusu Ulu öndərin milli neft strategiyasının müstəqillik illərində əldə edilən tarixi nailiyyətlər üçün yaratdığı baza təminatlar oldu.**



Söylənən mülahizələrdə “Əsrin müqaviləsi”nin bağlanması və uğurla gerçəkləşdirilməsi Heydər Əliyev zəkasının və iradəsinin təntənəsi kimi dəyərləndirilir.

ADNSU-nun rektor əvəzi dosent Vazeh Əskərov bu strategiyanın Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildiyini vurğulayıb.



**Dünən Fövqəladə Hallar Nazirliyində keçirilən “Əsrin müqaviləsi – Azərbaycanın strateji inkişaf konsepsiyasının təməlidir” mövzusunda konfransda da Ulu öndər Heydər Əliyevin yeni neft strategiyasının uğurları diqqət mərkəzində olub.**

FHN-in Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyində təşkil edilən konfransda nazirliyin Aparatı və strukturuna daxil olan qurumlarının, “Azneft” İstehsalat Birliyinin və Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının nümayəndələrinin iştirak etdikləri toplantıda fövqəladə hallar nazirinin müavini Tapdıq Əmiraslanov əsası Ümummilli lider tərəfindən qoyulmuş və hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən neft strategiyasının ölkəmizə qazandırdığı uğurlardan, “Əsrin müqaviləsi”nin sosial-iqtisadi həyatımızdakı əhəmiyyətindən danışıb.

FHN-in Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin rəisi Vüsal Ağayev, Azneft” İstehsalat Birliyinin baş direktorunun birinci müavini, baş mühəndis Rövşən Qarayev xalqımızı zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxaran, müasir Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyev tərəfindən imzalanmış “Əsrin müqaviləsi”nin əhəmiyyətindən, ölkəmizin siyasi, iqtisadi inkişafı, cəmiyyət və dövlət həyatının bütün sahələrində qazanılmış uğurlardansöz açıblar.

*

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetində isə Nəsimi Rayon İcra Hakimiyyəti ilə birgə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Ulu öndərin uğurlu neft strategiyası” mövzusunda konfrans keçirilib.**



Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov ölkənin əldə etdiyi tarixi uğurlarda “Əsrin müqaviləsi”nin yaratdığı təminatlardan danışıb. Çıxış edənlər Ulu öndərin neft strategiyasının ölkə iqtisadiyyatının müxtəlif sahələrinin, ilk növbədə, neft sənayesinin davamlı inkişafında xüsusi rol oynadığını bildiriblər.

*

**Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda “Heydər Əliyev İli” çərçivəsində “Əsrin müqaviləsi” tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır” mövzusunda toplantı keçirilib.**

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Rəhimli bildirib ki, Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilib və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilib. “Əsrin müqaviləsi”nin imzalanması ilə yeni neft strategiyasının əsası qoyulub. Sonrakı illərdə yeni müqavilələrin imzalanması ölkəmizin iqtisadi qüdrətinin gündən-günə artmasına töhfə verib. Ötən illər ərzində neftdən gələn gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi iqtisadiyyatın dinamik inkişafını təmin edib.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev Ümummilli liderin ölkəmizin hərtərəfli inkişafında, müstəqil Azərbaycan Respublikasının dünya birliyində layiqli yerini tutmasında müstəsna xidmətlərindən danışıb, müasir tariximizin otuz ildən artıq bir dövrünün dahi şəxsiyyətin adı ilə bağlı olduğunu vurğulayıb.

*

**Dünən Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən “Əsrin müqaviləsi” tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır” mövzusunda konfransda rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, ziyalılar, şəhid ailələrinin üzvləri, qazilər və ictimaiyyətin nümayəndələri iştirak ediblər.**

Rayon icra hakimiyyətinin başçısı İslam Rzayev bildirib ki, Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi” kimi möhtəşəm neft müqaviləsi imzalanıb. Bu qlobal layihə Azərbaycanın suveren dövlət kimi öz təbii



sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərib, dövlət müstəqilliyinin mühüm təminatına çevrilib.

YAP Balakən rayon təşkilatının sədri Azad Balayev, “Balakən Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsin direktoru Dilbər Quliyeva və rayon Statistika İdarəsinin rəisi Fərhad Xəlilov “Əsrin müqaviləsi”nin Azərbaycanın uzunmüddətli strateji maraqlarının, siyasi, iqtisadi mənafelərinin təmin edilməsinə, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsinə, beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdiyini qeyd ediblər.

**Hazırladı: T.RÜSTƏMLİ**
**XQ**

**Milli Kitabxana – 100**

# Mənəvi yaddaşın qoruyucusu



**M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında dünya milli kitabxanaların rəhbərlərinin iştirakı ilə “Milli kitabxanalar xalqların mənəvi yaddaşının qoruyucusudur” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Milli Kitabxananın direktoru Kərim Tahirov konfransı açıq elan edib.

Mədəniyyət naziri Adil Kərimli Milli Kitabxananın 100 illik yubileyi münasibətilə kitabxananın əməkdaşlarına təbriklərini çatdırıb.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Rusiya Dövlət Kitabxanasının baş direktoru Vadim Duda, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teşabayeva və başqaları çıxış edərək Milli Kitabxananın xalqımızın intellektinin formalaşmasındakı rolundan danışıblar.

Bildirilib ki, Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsinin təkcə kitabxanaçılar üçün deyil, həmçinin bütün oxucu nəsli üçün də əlamətdardır. Konfrans plenar iclaslarla davam edib.

Daha sonra Azərbaycan Milli Kitabxanası ilə Pakistan, Rusiya, Litva Milli Kitabxanaları, Roma Mərkəzi Milli Kitabxanası və Makedoniyanın Kliment Ohrid Universitet və Milli Kitabxanası (Skopye) arasında qarşılıqlı əməkdaşlığa dair memorandumların imzalanma mərasimi keçirilib.

Həmçinin Milli Kitabxananın tarixinə aid “Milli Kitabxananın qızıl fondundan”, “Milli musiqi xəzinəmizdən” və “Milli Kitabxananın nəşrləri” adlı kitab sərgiləri də təşkil edilib.

**XQ**

# İsrail Təhlükəsizlik Akademiyası: Beynəlxalq hüquq Azərbaycanın tərəfindədir

**Azərbaycan dövlətinin Qarabağdakı qanunsuz erməni birləşmələrinə və terrorçulara qarşı anti-terror əməliyyatı aparmaq məhz beynəlxalq hüquqla Azərbaycan dövlətinin özünümüdafiə hüququ və haqqıdır. Hər bir suveren dövlət öz ərazisini və mülki sakinlərini terrorçulardan və hərbi təcavüzdən qorumağa borcludur.**

İsrail Təhlükəsizlik Akademiyasının Azərbaycandakı Regional Nümayəndəliyinin dünən yaydığı bu bəyanatın davamında bildirilir: “Biz, Qarabağdakı erməni birləşmələrinin və erməni terrorçularının törətdiyi qanlı əməlləri və terror aktlarını qətiyyətlə pisləyirik. Azərbaycan dövləti öz mövqeyində haqlıdır və beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Hazırda öz ərazisini terrorçulardan təmizləmək üçün Azərbaycan dövlətinin apardığı anti-terror əməliyyatlarına öz dəstəyimizi ifadə edirik və hər zaman dost Azərbaycan dövlətinin və xalqının yanında olduğumuzu bildiririk”.

**XQ**

# Mina terroru qurbanları

## *Qanunsuz erməni hərbi dəstələrinin törətdiyi mina terroru nəticəsində həlak olan soydaşlarımız torpağa tapşırılıb*



**Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ torpaqlarında lokal xarakterli antiterror tədbirlərinə başlamasında son qığılcım rolu oynayan mina terroru nəticəsində həlak olaraq şəhidlik zirvəsinə ucalmış Daxili İşlər Nazirliyi əməkdaşlarının, eləcə də 2 nəfər mülki şəxsin dəfn mərasimləri keçirilib.**

Xatırladaq ki, sentyabrın 19-da saat 04 radələrində “Azəravtoyol” ASC-yə məxsus bir nəqliyyat vasitəsi Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcud olan erməni silahlı qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Xocavənd rayonu ərazisində basdırılmış tank əleyhinə minaya düşərək partlayıb. Bu təxribat nəticəsində 2 mülki şəxs – Fərhad Quliyev və Samir Sadıxov hadisə yerində həlak olublar.

Eyni gündə, qeyd edilən terrorun baş verdiyi əraziyə yola düşən Daxili İşlər Nazirliyinin 4 əməkdaşı Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda minaya düşərək həlak olub. Bunlar Asim Camalzadə, Ramil Şirinov, Seymur Mahmudov və Xəzər Zamanov, eləcə də həmin hadisədən əvvəl Füzuli rayonunda baş verən ağır yol-nəqliyyat hadisəsi nəticəsində həyatlarını itirən DİN-in daha 3 əməkdaşı – Elşən Həsənov, Seyfi Abdullayev, Ələsgər Əsgərovdur.



Şəhidlərin dəfn mərasimləri izdihamlı keçib. Onların üçrəngli bayrağımıza bükülmüş cənazələri polis əməkdaşlarının müşayiəti ilə doğma ata yurdunda təşkil olunan mərasim yerinə gətirilib. Dövlət və hökumət nümayəndələri, Daxili İşlər Nazirliyinin əməkdaşları, geniş ictimaiyyət, şəhidlərin ailə üzvləri və yaxınları dəfn mərasimlərində iştirak ediblər.

Ramil Şirinov və Asim Camalzadə Sumqayıtdakı Şəhidlər xiyabanında, Seymur Mahmudov Bakının Binəqədi , Xəzər Zamanov Yeni Günəşli, Seyfi Abdullayev Şamaxının Qələybuğurd kənd məzarlığında və Rasim Məmmədov Xəzər rayonu, Şüvəlan kənd qəbiristanlığında, cənazəsi Naxçıvana aparılan Ələsgər Əsgərov isə oradakı Əliabad qəbiristanlığında torpağa tapşırılıblar.



Dəfn öncəsi keçirilən vida mərasimlərində bölgədə sülhün və təhlükəsizliyin təmin edilməsi üçün Ermənistanın və onun yaratdığı qondarma rejimin hərbi təxribatları və törətdiyi qanlı terror aktları qətiyyətlə pislənilib və onların qarşısının alınması birmənalı olaraq tələb edilib. Şəhidlərin ruhuna dualar oxunub, qəbirlərinə tər güllər düzülüb.

Sentyabrın 20-də axşam Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edərək suverenliyimizin bərpa olunduğunu söyləyib: “Əfsuslar olsun ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgər, zabitlərimiz olub. Allah onlara şəfa versin. Onlar Vətən yolunda, haqq-ədalət yolunda, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etmişlər. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır”.

Dövlətimizin başçısı şəhidlərin qanının yerdə qalmadığını və qanunsuz erməni silahlı dəstələrinin böyük hissəsinin tamamilə məhv edildiyini, hərbi texnikasının vurularaq sıradan çıxarıldığını bildirib.

Qeyd edək ki, məlum üçtərəfli Bəyanat imzalanan vaxtdan – 10 noyabr 2020-ci ildən 19 sentyabr 2023-cü ilədək Qarabağ və Şərqi Zəngəzur ərazisində 314 nəfər azərbaycanlı mina partlayışının qurbanı olub. Onlardan 61 nəfəri həlak olub, 253 nəfəri xəsarət alıb. Mina qurbanlarının 149 nəfəri mülki şəxs, 165 nəfəri hərbi qulluqçulardır. Əlbəttə, havadarlarının “qızışdırdığı” ermənilərin törətdiyi terror aktları nəticəsində, özü də XXI əsrdə Azərbaycan xalqının öz doğma torpağında mina qurbanları verməsi dözülməz haldır. Elə məhz bu amil ordumuzu böyük qətiyyətlə lokal xarakterli antiterror əməliyyatı keçirməyə vadar etdi və bu da qanunsuz separatçı hərbçilərinin rus sülhməramlıları vasitəsilə təslim olaraq silahı yerə qoyması ilə nəticələndi.

Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Allah şəhidlərimizə rəhmət eləsin!

**Əli NƏCƏFXANLI**
**XQ**

Gənc Tamaşaçılar Teatrı – 95

# Uşaq və gənclərin qocaman teatrı

**Bu, ölkədə yeganə teatrdır ki, aktyorlar gündüz uşaq tamaşalarında, axşam klassik əsərlərdə dramatik rollarda oynayırlar. Söhbət 95-ci mövsümünü açmağa hazırlaşan Gənc Tamaşaçılar Teatrından gedir.**



Teatr ötən mövsümü uğurla tamamladı. Mövsümün sonlarında ərsəyə gələn və uğurlu premyerası olan bir neçə tamaşa yaddaşlarda qaldı. Yeni mövsümdə həmin əsərlər yenə repertuarda olacaq. Onlardan biri Mehriban Ələkbərzadənin quruluşunda "Kod adı V.X.A.", ikincisi İlqar Fəhminin pyesi əsasında Nicat Kazımovun quruluş verdiyi "Balaca kişilər" tamaşasıdır.

"Kod adı V.X.A" tamaşasında tarixi-sənədli faktlara istinadla XX əsrin 30-cu illərində Stalin repressiyalarından əziyyət çəkən qadınların sürgündəki həyatları təsvir edilib. Tamaşa Əhməd Cavadın 130 illiyinə, repressiya qurbanı olmuş böyük fikir adamlarına və onların ailə üzvlərinə ithaf olunub. 4 saat çəkən tamaşa birnəfəsə baxılır. Tarixilik baxımından önəmli sənət nümunəsidir.

"Balaca kişilər" isə 44 günlük Vətən müharibəsində döyüşüb şəhid, qazi olan, qələbə qazanan gənc oğlanların həyatını əks etdirir. Nicat Kazımovun quruluş verdiyi bu tamaşa yeni, 95-ci mövsümdə 2-ci təqdimatı ilə mövsümü açacaq.

Gənc Tamaşaçılar Teatrı 95-ci mövsümü zəngin və şərəfli tarixinin yeni inamlı səhifəsi kimi açır. Xatırladaq ki, bu sənət ocağı Bakı Uşaq Teatrı adı altında Azərbaycan Xalq Maarif Komissarlığının 1928-ci il 20 sentyabr tarixli qərarı ilə fəaliyyətə başlayıb. Teatrın ilk truppasında Ağadadaş Qurbanov, Məmmədağa Dadaşov, Yusif Əminli, Minə Abdullayeva, Yusif Dadaşov, Susanna Məcidova, Cavahir İskəndərova, Süleyman Ələsgərov, Hüseynağa Sadıxov, Kərim Həsənov, Zəfər Nemətov, Məhərrəm Haşımov, Əliməmməd Atayev kimi sənətkarlar cəfakeşliklə çalışıblar.

Teatr 1930-cu il yanvarın 30-da N.İvanterin "Qırmızı qalstuk əleyhinə" adlı əsərinin ilk tamaşası ilə qapılarını tamaşaçıların üzünə açıb. 1936-cı ildən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adlanır. Sovet dönəmində Gənc Tamaşaçılar teatrı bir çox mükafatlara layiq görülüb.

Hazırda teatr kollektivi beynəlxalq teatr festivallarında iştirak edib, uğur qazanan tamaşalara imza atır. Son 10 ildə yaradıcı kollektiv müxtəlif ölkələrdə keçirilən onlarla festivalda iştirak edib. Bakı Kamera Teatrı Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına birləşdirildikdən sonra qocaman sənət məbədi daha uğurla fəaliyyət göstərir.

Gənc Tamaşaçılar Teatrı uzun illərdir ki, səhnə məkanında məktəb rolunu oynayır. Burada yetişib püxtələşən bir çox aktyor və rejissorlar sonradan ölkənin müxtəlif teatrlarında və kino sahəsində uğurla çalışıblar. Onların arasında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında yoluna davam edənlər daha çoxdur.

Teatrda hazırda 8 Xalq artisti, 19 Əməkdar artist, 3 Əməkdar incəsənət xadimi, 2 Əməkdar mədəniyyət işçisi, 5 Prezident təqaüdçüsü, 10 Prezident mükafatçısı çalışır.

Hazırda teatrın repertuarında A.Şaiqin "Tıq-tıq xanım" və "Göyçək Fatma" nağılları, P.Pançevin "Dörd əkizin nağılı", A.Tolstoyun "Buratinonun macəraları", R.Kiplinqin "Mauqli" tamaşaları, Ə.Haqverdiyevin "Pəri Cadu", H.Cavidin "Şeyx Sənan", T.Vəliyevanın "Mənim ağ göyərçinim", M.F. Axundzadənin "Hekayəti Xırs quldurbasan", Ə.Əmirlinin "Hasarın o üzü", K.Qaldoninin "Mehmanxana sahibəsi", M.Füzulinin "Leyli və Məcnun" , A.Çexovun "Qağayı", M.Ələkbərzadənin "Kod adı – V.X.A." kimi maraqlı tamaşaları aparıcı yer tutur.

Teatrda uzun illərdir həm aktyor, həm rejissor kimi çalışan Nicat Kazımov yubiley ilinin mövsümü ilə bağlı bildirdi: 95-ci mövsümünü açmağa hazırlaşan teatrımızda 33-cü mövsümdür ki, çalışıram. Bu teatr evimdən çox olduğum bir məkandır. Burada həm qocaman sənətkarlar, həm də gənc aktyorlar çalışırlar. Lətifə Əliyeva, Tariyel Qasımov təqaüdə çıxan aktyorlarımızdır, amma teatrla əlaqələri kəsilmir, gənclərə yol göstərirlər. Çox istərdim ki, bütün xidmətləri nəzərə alınaraq teatrımızın statusu barədə təklifə yubiley ilində həssaslıqla yanaşılsın.

Hazırda Gənc Tamaşaçılar Teatrında fransız dramaturqu Jan Anuyun "Antiqona" əsəri əsasında hazırlanan tamaşanın məşqlərinə başlanılıb. Dünyanın bir çox səhnələrində hazırlanan bu əsərin quruluşcu rejissoru Əməkdar artist Nofəl Vəliyevdir. Uşaq və gənclərimizin sevimli teatrına yeni mövsümdə yeni sənət uğurları arzulayırıq.

***R.QURBANLI***
***XQ***

# XQ-nin kitab rəfi

## Silsilə nəşrin ilki




***"Heydər Əliyevin Aforizmləri: Motivasiya" (müəllif Nərgiz İsmayılovadır) kitabı "Qanun" nəşriyyatının Ulu öndərin 100 illik yubileyi münasibətilə hazırladığı və silsilə təşkil edəcək kitabların ilkidir.***

Ulu öndər həyat və fəaliyyətinin müxtəlif dönəmlərində müdrik və uzaqgörən zəkasından süzülüb gəlmiş həyat həqiqətlərini zaman-zaman ifadə edib və bu həqiqətlər aforizmlər şəklində xalqın qəlbinə, yaddaşına həkk olunub.

Oxucuların diqqətinə təqdim edilən bu kitabda Ümummilli liderin insanı gələcəyə səsləyən, ona ümid və təpər verən, mübariz olmağa çağıran, həyatda dönməzliyi, sarsılmazlığı təlqin edən, məqsədə çatmaq üçün bütün qüvvələrini səfərbər edərək fədakar fəaliyyətə səsləyən müdrik kəlamları toplanıb.

## Arif Məlikov və müasirləri




***Sənətşünaslıq üzrə fəlsəfə doktoru Aytən Baxşıyeva–İbrahimovanın "Heydər Əliyev" ordenli görkəmli bəstəkar, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti Arif Məlikovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Arif Məlikov: Tarix və müasirlik" kitabı Mədəniyyət Nazirliyinin dəstəyilə Qara Qarayevin ev-muzeyində təqdim olunub.***

Kitabda görkəmli bəstəkarın həyat və yaradıcılığına həsr olunmuş məqalələr və onunla bağlı xatirələr yer alıb. Sonuncu bölmədə Arif Məlikovun yetirmələrinin ürək sözləri verilib. Əlavəyə isə bəstəkarın əsərlərinin siyahısı daxildir. İstifadə olunmuş şəkillər Arif Məlikovun şəxsi arxivindən götürülüb.

## Kəlağayı dünyası

***"Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyi "Kəlağayı əlvan qıyqacı" layihəsi çərçivəsində yeni kitab nəşr etdirib.***

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin xətti ilə çap olunan şeirləri layihə rəhbəri Güllü Eldar Tomarlı uzun illər ərzində toplayıb. Qız-gəlinlərin ismət, gözəllik və yaraşıq rəmzi sayılan kəlağayını vəsf edən şeirlər kitabında 76 müəllifdən nümunələr yer alıb. Birinci vitse-prezident Mehriban Əliyevanın milli baş örtüyü olan kəlağayıya diqqət və marağını əks etdirən məqalə və şəkillər də toplanaraq oxucuların ixtiyarına verilib.

Kitabın redaktoru Vüsal Sehranoğludur. Üz qabığındakı "Kəlağayı əlvan qıyqacı" rəsm əsəri Gülnarə Məm-




mədliyə, qədim "Heratı" kəlağayısı isə basqallı usta Abbasəli Talıbova məxsusdur.

***Hazırladı:***
***Ə.DOSTƏLİ***
***XQ***

# Kukla Teatrında yeni mövsüm açıldı

## *"Melisa" tamaşasının premyerası uğurla keçdi*

**Sevinc Nuruqızının eyni adlı nağılının motivləri əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru – "Oyuq" teatr studiyasının rəhbəri Səidə Haqverdiyeva "XQ" yə açıqlamasında səhnə əsərini belə xarakterizə edib: "Tamaşa üzərində 6 aydan çoxdur ki, məşq edirdik. Səhnə əsəri 6 yaşdan yuxarı uşaqlar üçün nəzərdə tutulub. Melisa öz rahat və rəngli dünyasından çıxmış, həyatın hər üzünü görmüş gəlincik kukladır. Yaşadığı çətinliklərə baxmayaraq, ümidini itirmir. Tamaşa vasitəsilə uşaqlara istənilən çətinliyə düşsələr belə, ümidlərini itirməməyi, hər vəziyyətdən çıxış yolu tapmağı bacarmağı aşılayırıq".**



Birhissəli tamaşada fərqli texnikalı kuklalardan, işıq həlli və tərtibatdan istifadə olunub. Səhnə işinin quruluşçu rəssamı Əfşan Əsədova, bəstəkarı Röya Hüseynovadır. Tamaşada musiqi seçimi ideyanı tamamlayır, mövzunun açılmasını asanlaşdırır.

Səidə xanım yeni mövsümdə oynanılacaq digər tamaşalar haqqında da məlumat verdi: "Rejissor Anar Məmmədovun quruluşunda "Ələddin" tamaşasının nümayişi gözlənilir. Həmçinin, teatrda məşqləri gedən növbəti səhnə işi – böyüklər üçün nəzərdə tutulan və əsasən də festivallarda nümayiş üçün hazırlanan "İtki" adlı kukla tamaşasıdır. Uzun illər səhnədə oynanılan "Cik-cik" tamaşasını da yeni quruluşda təqdim etməyi düşünürük".

Teatrın direktoru Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə ümumi yaradıcılıq atmosferini dəyərləndirdi: "Bu gün uşaqlar, ələlxüsus da, kiçik yaş qrupu üçün bədii nümunələr tapmaq və kukla estetikasında səhnəyə tamaşa qoymaq elə də asan deyil. Çünki o yaş qrupu daha çox animasiya dilini – özü də valideynlərinin çox vaxt başları qarışsın deyə, onlara verdikləri "ağıllı" telefonlardakı effektli oyun və animasiyaları gördükləri üçün – daha asan qavrayırlar. Amma bütün bunlara rəğmən, biz bacardığımız kimi işimizin öhdəsindən gəlməyə çalışırıq. Bu baxımdan əminəm ki, "Melisa" tamaşası balaca teatrsevərlərimizin xoşuna gəldi. Fürsətdən istifadə edib, uşaq yazıçı və dramaturqlarından belə əsərlər yazıb bizə göndərmələrini xahiş edirəm".



Aktrisa Ülviyyə Əliyeva "Melisa" tamaşasının ilk məşqlərinə başlayanda çox kövrəldiyini dedi: "Tamaşa o qədər təsirli idi ki, öz rolumu oynayanda belə çox kədərlənmişdim. Səhnə əsərində 4 obraz canlandırıram. Bunların hər biri mənə doğmadır. Tamaşa oynanıldıqca daha da gözəl olacaq. Hər kəsi tamaşaya baxmağa dəvət edirəm".

Premyeradan sonra uşaqların üzlərindəki razılıq hissini görməmək, duymamaq mümkün deyildi. Məktəbli dostumuz Firuz İbrahimov teatrın açılışı üçün hədsiz darıxdığını və tamaşanı çox bəyəndiyini dedi. İradə Allahverdiyeva da Kukla Teatrını sevdiyini, teztez tamaşalara gəldiyini və zövq aldığını bildirdi.

Qeyd edək ki, Kukla Teatrının kollektivi Ümummilli lider Heydər Əliyevin 100, Peşəkar Azərbaycan Teatrının 150 illik yubileyi münasibətilə sentyabrın sonlarında "Melisa" tamaşası ilə Gəncə şəhərinə qastrol səfərinə yollanacaq.

***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto)***
***XQ***

Çingiz Aytmatov –95

# Qırğız ədibin kitabı ana dilimizdə

**Dekabr ayında dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun anadan olmasının 95 illiyi ölkəmizdə geniş qeyd ediləcək. Yubiley ərəfəsində yazıçı-tərcüməçi Nəriman Əbdülrəhmanlının çevirməsində görkəmli ədibin "Dağlar yıxılanda" adlı nəsr toplusu işıq üzü görüb.**




Qırğızıstan Respublikasının ölkəmizdəki səfirliyində toplunun təqdimatı keçirilib. Mərasimdə yazıçının oğlu, Beynəlxalq Çingiz Aytmatov Fondunun prezidenti Eldar Aytmatov da iştirak edib.

Qırğızıstanın Bakıdakı səfiri Kayrat Osmanaliyev ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafından və mədəni əlaqələrin möhkəmlənməsindən söz açıb. O, böyük ədibin yaradıcılığına Azərbaycanda göstərilən marağı yüksək qiymətləndirib, yeni kitabın yazıçının yubileyinə dəyərli töhfə olduğunu vurğulayıb.

Nəriman Əbdülrəhmanlı çıxışında Çingiz Aytmatovun Azərbaycanı özünün ikinci Vətəni saydığını, ölkəmizdə böyük ədibin əsərlərinin çox sevildiyini, Qırğızıstan səfirliyinin dəstəyi ilə işıq üzü görən yeni nəşrin də maraqla qarşılanacağını əminliklə bildirib.

Ədibin oğlu Eldar Aytmatov yeni nəşrin onun atasının xatirəsinə sonsuz hörmət nişanəsi olduğunu bildirib, tərcüməçiyə və səfirə təşəkkür edərək, hər ikisinə Çingiz Aytmatov adına Beynəlxalq İssık-Kul Forumunun xatirə medalını təqdim edib.

TÜRKSOY-un Azərbaycan təmsilçisi Elçin Qafarlı Çingiz Aytmatovun 95 illik yubileyinin Azərbaycanda keçirilməsini və kitabın nəşrini türk xalqlarının mənəvi birliyinə verilən sanballı töhfə adlandırıb.

Qeyd edək ki, "Qanun" nəşriyyatında nəfis şəkildə nəşr olunmuş kitaba yazıçının sonuncu "Dağlar yıxılanda" romanı, "Üz-üzə" povesti və hekayələri daxil edilib. Kitabın rəyçisi filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli, mətndəki şeirlərin tərcüməçisi Nurafiz, redaktoru isə İlqar İlkindir.

***Ə.ƏLİYEV***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Qarabağda baş verənlər qlobal medianın gündəmində



(əvvəli 1-ci səhifədə)

Qeyd etmək lazımdır ki, beynəlxalq KİV hadisələrin mahiyyətini müxtəlif rakurslardan işıqlandırmağa çalışır. Bu barədə yazılarda belə bir məqam xüsusi vurğulanır ki, Cənubi Qafqazda aparılan əməliyyatlar beynəlxalq hüquq normalarına uyğundur və müstəqil Azərbaycanın tamamilə öz ərazi bütövlüyü və suverenliyini təmin etmək hüququ vardır.

Türkiyə mətbuatı, xüsusilə, "Anadolu" agentliyi və TRT kanalı Qarabağda hadisələri diqqətlə izləyir, bu barədə oxucu və tamaşaçıları operativ qaydada məlumatlandırır. Qardaş ölkənin mediasında bu ölkənin ən yüksək ranqlı rəsmilərinin hadisələrə dair mövqelərini əks etdirən rəylər də geniş yer alır.

Prezident R.T.Ərdoğanın BMT-nin yüksək tribunasından Azərbaycanın haqq işini birmənalı olaraq dəstəkləməsi, bu ölkənin müdafiə naziri Yaşar Gülərin Türkiyənin hər zaman olduğu kimi, bu dəfə də ölkəmizin yanında olması barədə bəyanatı, eləcə də sadə türklərin "Can Azərbaycan"ı heç vaxt darda qoymayacaqları ilə bağlı ürək sözləri Azərbaycan və Türkiyə dövlətləri və xalqlarının bir-birilə nə qədər yaxın olduğunu bir daha nümayiş etdirir.

Qərb mediası "dünyanın ən həssas nöqtələrindən biri"nə çevrilən Qarabağdakı proseslərə biganə qalmır. "Amerikanın səsi" radiosu xəbər verir ki, Azərbaycan ordusu Qarabağda "lokal xarakterli antiterror tədbirləri"nə başlayıb: "Rəsmi Bakı hərbi əməliyyatları 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatın müddəalarının təmin olunması və Azərbaycan konstitusiya quruluşunun bərpa edilməsi məqsədi ilə əsaslandırıb".

Məlumatda, həmçinin qeyd edilir ki, Azərbaycan mətbuatı Prezident Administrasiyasının Qarabağ ermənilərinin müraciətinə cavab olaraq rəsmi açıqlamasını yayıb. Sənəddə hakimiyyətin Qarabağ erməniləri ilə Yevlaxda görüşə hazır olduğu deyilir. Bununla bərabər, açıqlamada əlavə edilir ki, hərbi əməliyyatın dayandırılması üçün qanunsuz erməni silahlı dəstələri bütün silahları təhvil verməli və qanunsuz rejim özünü buraxmalıdır.

BBC informasiya agentliyi də Qarabağdakı hadisələrə operativ reaksiya verir. Agentliyin şərhçisi "Əməliyyatlar niyə başlandı?" adlı yazıda bildirir ki, döyüşlərin başlanması ərəfəsində altı azərbaycanlı həyatını itirmişdi. "Hadisə qanunsuz erməni silahlı birləşmələrinin əraziyə mina yerləşdirməsi nəticəsində baş vermişdir". BBC-nin şərhində, həmçinin qeyd olunur ki, Qarabağda vəziyyət bir neçə ay idi ki, gərgin idi və Azərbaycanın belə bir əməliyyata başlayacağı gözlənilirdi.

Yeri gəlmişkən, sentyabrın 19-da Ermənistanın baş naziri Nikol Paşinyan təhlükəsizlik şurasının iclasını keçirib. Dünyanın əksər mətbu nəşrləri bu barədə məlumat yayıblar. Bildirilir ki, baş nazir Azərbaycanın Qarabağda keçirdiyi hərbi əməliyyatlarla bağlı ABŞ dövlət katibi Antoni Blinken və Fransa Prezidenti Emmanuel Makronla telefonla danışıb. Paşinyan canlı yayımla çıxış edərək onu da vurğulayıb ki, Ermənistan Azərbaycanla hərbi əməliyyatlara cəlb olunmayacaq.

Təəssüf ki, erməni lobbisinin təsirinin güclü olduğu Fransa mediası Azərbaycana qarşı qərəzli və əsassız məlumatlar yayır. Bu yazılarda, guya, Azərbaycan tərəfinin Qarabağda mülki əhalini və infrastrukturu hədəfə aldığı iddia olunur. Bütün bunlar, təbii ki, dezinformasiya xarakteri daşıyır.

Dünən İrəvanda ictimai-siyasi vəziyyət yenidən kəskinləşib. Belə ki, Paşinyanın Qarabağla bağlı çıxışından sonra Yerevanda hökumət evinin qarşısında etirazlar başlayıb. Etirazçılar Ermənistan hakimiyyətindən Qarabağdakı əməliyyatlara müdaxilə etməyi tələb ediblər. TASS agentliyinin yazdığına görə, aksiya iştirakçıları Rusiya səfirliyinin çıxışını da bağlayıblar.

Sosial şəbəklər də Cənubi Qafqazda gedən proseslərə biganə qalmırlar. Hazırda "Facebook", "Telegram", "İnstagram" və sair şəbəkələrdə bu barədə çeşidli fikir və mövqelər sərgilənir. Təqdirəlayiq haldır ki, sosial şəbəkələrdə Azərbaycanın haqq işini dəstəkləyənlərin sayı durmadan artır.

Dünən axşam saatlarında məlum oldu ki, Qarabağda lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə tərəflər arasında razılıq əldə olunub. Həmin xəbərdə bildirilib ki, Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da bir sıra şərtlər altında antiterror tədbirləri dayandırılır.

Bu xəbər də həm qlobal media, həm də sosial şəbəkə izləyiciləri tərəfindən müsbət qarşılanıb. Bu barədə paylaşımlarda qeyd olunur ki, ən kövrək sülh belə qanlı savaşlardan yaxşıdır. Bununla da Azərbaycan dövləti və xalqı bəşəri, humanist dəyərlərə sadiq qaldığını bir daha nümayiş etdirdi.

Amma, qarşı tərəf, yəni, ermənilər öz məkrli siyasətlərindən əl çəkməli, sülh şəraitində yaşamağın üstünlüyünü, nəhayət, dərk etməlidirlər. Ümid edək, məhz belə olacaq! Ermənilər daşı ətəklərindən töküb sülhə qol qoysalar, regionda sabitlik hökm sürər, inkişaf və rifah üçün meydan açılar.

***Ceyran CƏFƏRLİ,***
***Məsaim ABDULLAYEV***
***XQ***

## Ekspert rəyi



**Həmid VƏLİYEV,**
**BDU-nun beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professoru**

– Qlobal media Azərbaycan dövlətinin Qarabağda başladığı antiterror əməliyyatına böyük diqqətlə yanaşır. Bu da səbəsiz deyil. Çünki Cənubi Qafqaz hazırda dünyanın ən həssas bölgələrindən biridir. Təbii ki, burada baş verən gərgin proseslər planetimizdə yeni dünya düzəninin formalaşmasına böyük təsir göstərə bilər.

Təqdirəlayiq haldır ki, dünyanın bir çox nüfuzlu mətbu nəşrləri hadisələr barədə operativ məlumat verməyə çalışırlar. Göstərirlər ki, Azərbaycanın öz ərazisində antiterror əməliyyatı aparmağa tam hüququ var.

Lakin ermənilərə yaxın olan, erməni lobbisinin təsiri altında olan, xüsusilə də ermənipərəst Fransa mətbuatı bu günlərdə Azərbaycan barədə saysız-hesabsız yalan məlumatlar yayır, Qarabağda aparılan əməliyyatlarda mülki şəxslərin, uşaqların, qocaların hədəfə alındığı barədə saxta məlumatlar tirajlayır. Azərbaycanın rəsmi dairələri bu yalanları vaxtında təkzib edirlər.

Bizim dostlarımızla rəqiblərimiz arasında Qarabağla bağlı çoxdan informasiya müharibəsi gedir. Əlamətdar haldır ki, əvvəlki dövrələrə nisbətən indi hadisələr daha obyektiv şərh olunur. Fikrimcə, sosial şəbəkələrin də xalqımıza dəstək verməsi Azərbaycan diplomatiyasının və mediasının uğuru hesab oluna bilər.

Yaxşı haldır ki, Azərbaycan dövləti, diplomatlarımız, o cümlədən mediamız bu antiterror əməliyyatları ərəfəsində dünya ictimaiyyətini məlumatlandıra bilmişdir. Yaxın və zuaq ölkələrin internet televiziyalarında da Azərbaycanın ədalətli mövqeyii dəstəklənir. Xüsusilə Ukraynanın onlayn televiziyalarında ölkəmizin mövqeyi dəstəklənir.

Görünən budur ki, hazırda qonşusu Rusiyanın təcavüzünə məruz qalan Ukrayna Azərbaycanın öz suverenliyinin təmin etmək istiqamətində atdığı addımları alqışlayır.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə Abşeron rayonunda, Bakının Ramana, Kürdəxanı qəsəbələrində və Gəncə şəhərində daha 100 mənzil verilib.**

# Şəhid ailələri və müharibə əlillərinə 100 mənzil də verildi



Gəncədə mənzillərin sənədlərinin təqdim edilməsi tədbirində Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə göstərilən dövlət qayğısından bəhs edib. Bildirilib ki, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsi, onların mənzillə təminatı tədbirlərinə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılıb. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlə təminatı proqramı 5 dəfə genişlənib.

Qeyd olunub ki, bu gün Bakı və Gəncə şəhərlərində, Abşeron rayonunda təqdim edilən 100 mənzil də daxil olmaqla bu il 750, postmüharibə dövründə 5 250, ümumilikdə ötən dövrdə 14 050 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara təqdim olunub. Ölkə Prezidentinin sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunur. 44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz də avtomobillə təmin edilirlər. Müharibə ilə əlaqədar əlilliyi olanlara postmüharibə dövründə 324, ümumən, ötən dövrdə 7500-dən çox avtomobil verilib.





Tədbirdə şəhər icra hakimiyyətinin başçısının müavini S.Tomuyev Gəncədə şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsi sahəsində görülən işlərdən bəhs edib.

Şəhid ailələrinin üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər diqqət və qayğı ilə əhatə olunduqlarına, yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

***Zərifə HÜSEYNOVA***
***XQ***




# Uğurlar, "Qarabağ"!

**Azərbaycan çempionunun, bütün futbolumuzun pərəstişkarları üçün bu gün xüsusi bir gündür. Ağdam komandası UEFA Avropa Liqasının qrup mərhələsində mübarizəyə başlayır. "Qarabağ"ı qarşıdakı, təxminən, üç ay ərzində – dekabrın ortalarınadək Almaniya futbolunun nəhənglərindən biri – Leverkuzenin "Bayer" klubu, Skandinaviya tandemi Norveçin "Molde" və İsveçin "Hakken" komandaları ilə kəskin rəqabət gözləyir. Ciddi məqsədlərlə yaşayan bu rəqiblərin hər biri qrup mərhələsinə vəsiqəni özü üçün uğurun son həddi hesab etmir, hamı qazanılmış müvəffəqiyyəti daha da inkişaf etdirmək, mümkün qədər uzağa getmək əzmindədir.**

Bunun üçünsə ağır sınaqların finişinə turnir cədvəlinin ilk iki pilləsindən birində çatmaq lazımdır. Bu halda qrupun qalibi birbaşa Avroliqanın səkkizdəbir finalında yoluna davam etmək hüququ qazanacaq, ikinci yerin sahibi isə 1/16 finalda oynayacaq.

Əlbəttə, bu məqsədə nail olmaq asan deyil, istisnasız olaraq bütün rəqiblərdə ən yaxşı nəticəyə layiq olduğunu sübuta yetirmək istəyi böyükdür. Bir sözlə, dörd komandadan hər biri iddialıdır və hamı qüvvəsinə heyfslənmədən sonadək, sözün əsl mənasında, döyüşəcək.

Elə üçüncü yeri tutan klub da özündən və nəticəsindən müəyyən dərəcədə razı qalacaq. Bu yerin sahibi Avropa Liqası ilə vidalaşsa da, hər halda, Konfrans Liqasının pley-off mərhələsinə (1/16 finala) vəsiqəni təmin etmiş olacaq. Yalnız yekun cədvəlində sonuncu pillədə qalan kollektivin əli hər şeydən üzüləcək, avrokuboklarda "oyundankənar" vəziyyətə düşəcək.

Burada xatırladaq ki, Avroliqanın qrup mərhələsində iştirak edəcək 32 komanda səkkiz qrupa bölünmüşdür. "Qarabağ"ın daxil olduğu "H" qrupundakı kimi, digər yeddi qrupda da daha işıqlı gələcəyə aparan yolda bütün rəqiblər yüksək ustalıqla yanaşı, fədakarlıq və əsl qələbə əzmi göstərməlidirlər.

Ölkə çempionumuz qrupda ilk addımını bu axşam "Molde" ilə görüşdə atacaq. Hər hansı bir yarışda uğurlu startdan çox şey asılıdır. Norveçli qonaqlarımızla oyunda qələbə Ağdam klubunun İsveç (5 oktyabr) və Almaniyaya (26 oktyabr) səfərləri ərəfəsində, şübhəsiz, həm komandanın əhvalını yaxşılaşdırar, həm də öz qüvvəsinə inamını daha da artırar.

Bu görüşlərlə də qrupda turnir məsafəsinin birinci yarısı arxada qalacaq. İkinci dövrədə isə "Qarabağ" iki matçda "ağ fiqurlarla" oynayacaq, "doğma divarlar" amilindən maksimum dərəcədə istifadə etməyə çalışacaq. Bütövlükdə, son üç görüşümüzün təqvimi belədir: 9 noyabr: "Qarabağ" – "Bayer". 30 noyabr "Molde" – "Qarabağ". 14 dekabr. "Qarabağ" – "Hakken".

Artıq start ərəfəsində olan bu turnir Qurban Qurbanovun komandasının son on ildə avrokubokların qrup mərhələsində onuncu iştirakı olacaq. Ümid edək ki, indiki yarış Ağdam klubunun tarixinə Avropa stadionlarında onun ən uğurlu turniri kimi yazılacaq.

Beləliklə, top doğma azarkeşlər qarşısında çıxış edən "Qarabağ"dadır. Azərbaycan çempionu Tofiq Bəhramov adına Respublika stadionunda "Molde" ilə çətin sınağa hazırdır. Elə "Qarabağ"ın azarkeşləri, bütün Azərbaycan da saat 20:45-də FİFA-nın şotlandiyalı hakimi Con Bitonun start işarəsi ilə başlanacaq görüşü xoş bir həyəcan və böyük maraqla gözləyirlər.

Uğurlar, "Qarabağ"!

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# BMT-də Xəzərin ekoloji problemləri səsləndirilib

**Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov "Xəzər Ekoloji Təşəbbüsü" yaratmağı təklif edib. Bu barədə ölkə başçısı BMT Baş Assambleyasının 78-ci sessiyasında çıxış edərkən söyləyib.**



Siyasətçi BMT BA-nın nümayəndələrinə müraciətində xatırladıb ki, ötən ilin yayında Türkmənistanda keçirilən VI Xəzər Sammitində bütün iştirakçılar ekoloji məsələlərdə sıx əməkdaşlığa hazır olduqlarını qəti şəkildə təsdiqləyiblər.

Onun fikrincə, belə bir təşkilat Xəzər dənizinin ətraf mühitin mühafizəsi, onun bioloji ehtiyatlarının qorunması, bir sıra aktual ekoloji problemlərin həlli ilə bağlı geniş spektrli məsələlər üzrə peşəkar qarşılıqlı fəaliyyət üçün beynəlxalq platformaya çevrilə bilər.

Berdiməhəmmədov Mərkəzi Asiyada ekoloji problemlərə daha çox diqqət yetirməyi də təklif edib. O, "təxminən, 80 milyon əhalisi olan, geniş əraziləri tutan, unikal təbii sərvətlərə və biomüxtəlifliyə malik olan və eyni zamanda ciddi ekoloji risklər zonasında, yerləşən region üçün BMT-nin hərtərəfli ekoloji strategiyasının formalaşdırılması üçün məqsədyönlü və konkret tədbirlərə başlamağa" çağırıb.

***XQ***



# Nyu-Yorkda ABŞ və Özbəkistan prezidentləri görüşüblər

**BMT Baş Assambleyasının 78-ci sessiyasının tədbirləri çərçivəsində Özbəkistan və ABŞ Prezidentləri - Şavkat Mirziyoyev və Cozef Bayden arasında danışıqlar olub. Bu barədə Özbəkistan prezidentinin mətbuat xidməti məlumat yayıb.**

"İkitərəfli gündəlikdəki cari və regional əməkdaşlıq məsələlər müzakirə edilib. ABŞ Prezidenti müstəqillik, suverenlik və ərazi bütövlüyünü, eləcə də Özbəkistanda davam edən islahatların gedişini dəstəklədiyini təsdiqləyib", - məlumatda deyilir.

Tərəflər Mirziyoyevin ABŞ-a səfəri ərəfəsində ikitərəfli görüşlərin və biznes forumun nəticələrini müsbət qiymətləndiriblər.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 204 (30320) 21 sentyabr 2023-cü il, cümə axşamı

## İdman xəbərləri

# Millimiz Niderlanda qalib gəlib

**Azərbaycanın futzal millisi dünya çempionatı–2024-ün elit mərhələsindəki ikinci oyununda qələbə qazanıb.**



Millimiz Niderland yığmasını 6:1 hesabı ilə üstələyib.

Azərbaycan komandasında qolları Rafael Vilela (2), Everton Kardoso, Maneka və Felipinyo (2) vurublar.

Qeyd edək ki, yığmamız A qrupunun ilk görüşündə səfərdə Rumıniyaya məğlub olub – 1:3.

# Parataekvondoçularımız Qran-Pri-də 3 medal qazanıblar

**Meksikanın Verakrus ştatında parataekvondo üzrə Qran-Pri turnirində komandamız 3 medal qazanıb.**



Baş məşqçi Fərid Tağızadənin yetirmələrindən Sabir Zeynalov (58 kq, K-44) bütün döyüşlərini qələbə ilə bitirərək çempion tituluna sahib olub. Onun uğurunu İmaməddin Xəlilov (70 kq, K-44) da təkrarlayıb. İdmançımız bütün rəqiblərinə qalib gələrək komandamızın aktivinə ikinci qızıl medalı yazdırıb. Milli komandamıza digər mükafatı Əbülfəz Abuzərli (80 kq, K-44) qazandırıb. Parataekvondoçumuz 3-cü yeri tutub.

Qeyd edək ki, komandamız bu heyətlə eyni məkanda təşkil ediləcək dünya çempionatında iştirak edəcək. Yarış sentyabrın 21-dən 24-dək davam edəcək.

# Dünya çempionatında 5 mükafat

**Azərbaycanın uşaq, yeniyetmə və böyüklərdən ibarət karateçiləri Özbəkistanın paytaxtı Daşkənddə təşkil olunan 13-cü dünya çempionatında uğurla çıxış ediblər.**



Dünya Şotokan Karate Federasiyasının təşkilatçılığı ilə baş tutan yarışda Türkiyə, Özbəkistan, Qazaxıstan, Almaniya, İtaliya, İspaniya olmaqla 34 ölkədən 3 min 500-dən çox idmançı qüvvəsini sınayıb.

Yarışda Azərbaycan yığması və FHN-in karate üzrə komandasının 4 üzvü - Nicat Kərimli (75 kq), Yavərbəy Abdullayev (+84 kq), Səbinə Fərzəli (59 kq) və İlqar Ələkbərov (84 kq) yüksək nəticələr əldə ediblər. N.Kərimli, Y.Abdullayev və S.Fərzəli kumite yarışlarında 4 döyüş keçirərək bütün rəqiblərinə qalib gəliblər və fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. İlqar Ələkbərov isə kişilər arasında komanda kumite yarışlarında qızıl, şəxsi kata yarışlarında bürünc medala sahib olub.

Nicat Kərimli, Yavərbəy Abdullayev və Səbinə Fərzəlinin şəxsi məşqçiləri 6-cı dan qara kəmər sahibi Akif Kərimov, komanda üzrə məşqçi isə karate üzrə ikiqat dünya çempionu, 8-ci dan qara kəmər sahibi, FHN-in İdman-sağlamlıq Klubunun rəisi, polkovnik Füzuli Musayevdir.

Füzuli Musayev çempionatda uğur qazanmış idmançıları görüşərək qazandıqları nailiyyətlərə görə onları təbrik edib.

Qeyd edək ki, Nicat Kərimli bu ay Dünya Karate Federasiyasının təşkilatçılığı ilə Kiprin Larnaka şəhərində keçiriləcək "Karate1 Series A" turnirində çıxış edəcək.

*Leyla SABİRQIZI*
*XQ*

## Texnologiya yenilikləri

# Beyin çipi sınağı başlanır




**Milyarder sahibkar İlon Maska məxsus beyin çipi startapı Neuralink iflic xəstələri üçün beyin implantının ilk sınağına başlamaqla bağlı Müstəqil Müşahidə Komissiyasından razılıq aldığını bildirib.**

Bu barədə "Reuters" məlumat yayıb. Bildirilib ki, servikal onurğa beyni zədəsi və ya amiotrofik lateral skleroz səbəbi ilə iflic olan insanlar tədqiqat üçün uyğun ola bilər. Tədqiqatda neçə insanın iştirak edəcəyi dəqiqləşdirilməsə də, onun, təxminən, 6 il çəkəcəyi qeyd olunub.

# Tasmaniya pələnginin də RNT-si çıxarılıb

**Elm adamları Tasmaniya pələngindən tutmuş, mamonta qədər nəsli çoxdan kəsilmiş növlərin həyata qaytarılmasına getdikcə yaxınlaşırlar.**



Tədqiqatçılar ilk dəfə Stokholmdakı muzeydə 1891-ci ildən qorunub saxlanılan Tasmaniya pələnginin qurudulmuş dərisindən və əzələsindən bütün canlı hüceyrələrdə tapılan və struktur olaraq DNT-yə bənzəyən genetik material olan RNT aşkar etdiklərini bildiriblər.

Tasmaniya pələngi – it boyda zolaqlı ətyeyən heyvan milyonlarla il əvvəl Avstraliyada çox yayılsa da, təxminən, 2 min il əvvəl materikdən yoxa çıxıb. 1920-ci illərə qədər Tasmaniyada yaşayan bu növün kökü onu heyvandarlıq üçün təhlükə hesab edən avropalı kolonistlər tərəfindən tamamilə kəsilib.

*L.QURBANOVA*
*XQ*

## Maraq dünyamız

# Üzeyir Hacıbəyli süni intellekt güzgüsündə

**Elə tarixi şəxsiyyətlər var ki, onlar insanların qəlbində özlərinə əbədi hörmət və məhəbbət qazanıblar. Xatirəsi daim əziz tutulan, unudulmaz böyük ziyalılarımızdan biri də milli musiqimizin banisi Üzeyir Hacıbəylidir.**




Bu günlərdə anadan olmasının 138-ci ildönümü qeyd olunan dahi bəstəkarın süni intellekt tərəfindən fotoları hazırlanıb. Reallığa yaxın görüntülər sosial şəbəkə istifadəçilərinin marağına səbəb olub və geniş paylaşılıb.

Bir çox izləyicilər öz paylaşımlarında dahi bəstəkarın xalqımızın mədəni inkişafında misilsiz rol oynadığını dərin məmnunluq hissilə qeyd ediblər.

*S.FİDAN*
*XQ*

# Qədim Roma legionu kazarması

**Bolqarıstanın şimalında Dunay üzərindəki Nova qalasında qazıntı işləri aparılır. Tədqiqat zamanı alimlər uzunluğu 60 metr, eni isə 38 metr olan taxta və torpaqdan ibarət hərbi kazarmalar kompleksi aşkar ediblər. Burada Roma ordusunun ən qədim legionlarından birinin yerləşdiyi təxmin edilir.**



Bundan əlavə, burada keramika və qurğuşun borulardan hazırlanmış su kəmərləri sistemi aşkar edilib. Maraqlıdır ki, qədim romalılar həmin keramika qabından soyuducu kimi istifadə ediblər.

*AYTƏN*
*XQ*

# "Saqqallı" uşaq…

**Filippinli qrafik rəssam Percival Lugue 5 yaşından bəri "McDonald's", "Burger King" və digər "fast-food" restoran şəbəkələrindən oyuncaq toplayır. 2014-cü ildən Ginnesin rekordlar kitabına adı düşmüş bu şəxsin 10 min oyuncağı var idi.**



Hazırda 50 yaşı olan Luguenin evində döşəmədən tavana qədər yığılmış, təxminən, 20 min ədəd oyuncaq var. Rəssam oyuncaqlara olan marağı haqqında danışarkən deyib: "Oyuncaq toplamaq məndə hər hansı işdə uğur qazanmağım üçün stimul yaradır. Digər uşaqlar oyuncaqlarını sındıranda mən onları sərgiyə qoyurdum. Dostlarımı və ailəmi "fast-food" yeməyə dəvət edəndə onlar oyuncaqlara olan marağımı bildikləri üçün mənə onları hədiyyə gətirirlər".

Daha çox elektrik oyuncaqlara marağının olduğunu deyən P.Lugue həmçinin bildirib: "Mənim üçün ən dəyərli oyuncaq 1988-ci ildə anamın hədiyyə etdiyi Jollibee zəncirindən tutacaqları olan "Hetty Spaghetti" adlanan heykəlcikdir.

Hazırda rəssamın ən böyük arzusu oyuncaq muzeyi açmaqdır.

*F.SALMAN*
*XQ*

# "Lider" gəmilər

**Dəniz – yüklərin bir nöqtədən digərinə çatdırılmasında önəmli rol oynayır. Bəzən bütöv bir gəmini və ya neft platformasını daşımaq lazım gəlir. Dünyanın ən böyük yük gəmiləri məhz belə məqsədlər üçün yaradılıb.**



Konteyner gəmisi "Emma Maersk" öz ölçüsü ilə insanları heyrətləndirir. O, nəhəng gəmilər arasında liderdir - uzunluğu demək olar ki, 397 metr, eni 63 metrdir. O, hər biri 14 tonluq 11 min konteyneri qəbul edir. Belə yüklərin öhdəsindən gəlmək üçün "Emma Maersk" dünyanın ən böyük daxiliyanma mühərrikləri ilə təchiz olunub. Maraqlıdır ki, bu gəmi onun sahibinin həyat yoldaşının adını daşıyırdı.

Ən böyük yük daşıyıcısı Cənubi Koreyada inşa edilmiş "Berg Stahl" idi. Onun uzunluğu 343 metr, eni 63,5 metrdir. Bu gəminin ümumi yükgötürmə qabiliyyəti 364 min tondan artıqdır. Yük gəmisi ilk səyahətini 1986-cı ildə edib.

"Blue Marlin" ("Mavi Marlin") başqa bir nəhəng gəmidir. 2004-cü ildə o, çəkisi 60.000 ton olan ən böyük neft platformasını və qazma qurğusunu Koreyadan Texasa daşıyıb. Bu zaman 15.000 dəniz mili səyahət edib.

*P.ƏFƏNDİ*
*XQ*

## Sağlamlıq

# Ağartı – ağ məlhəm

**Ağartı, xüsusilə qatıq bəzi yeməklərdə istifadə edilməklə yanaşı, həm də vitaminlər, minerallarla zəngin olub sağlamlıq üçün çox faydalıdır.**



Dietoloqların fikrincə, qatıq kalsium və probiyotiklər kimi qida maddələrinin mənbəyidir. Bu məhsul sümüklər, bağırsaqlar üçün faydalıdır və arıqlamağa da kömək edir. Bir qab azyağlı qatıq 14 qrama qədər protein təmin edir. Protein toxluq hissi yaratdığından qatıq enerji almağa kömək edən ideal səhər qəlyanaltısı ola bilər.

Tədqiqatlar sübut edib ki, süd məhsullarının qəbulunu artırmaq yüksək qan təzyiqinin inkişaf riskini azalda bilər. Balanslaşdırılmış pəhrizin bir hissəsi kimi müntəzəm qatıq istehlakı xəstəlik riskini 30 faiz aşağı salır.

Qatıq həmçinin xolesterol səviyyəsini aşağı salmaqla ürək sağlamlığını yaxşılaşdırır. Bağırsaqların selikli qişalarının keçiriciliyini tənzimləyir və sağlamlığını qoruyur. Bundan başqa, qatığın tərkibində probiotiklərin olması virus və toksinlərlə mübarizə apara bilən təbii antikorların və immun hüceyrələrin sintezini stimullaşdırır.

*Z.HÜSEYNLİ*
*XQ*

# Yağış, dolu, qar...



Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, sentyabrın 21-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 16-19° isti, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu olacaq. Nisbi rütubət 55-65 faiz olacaq.

Əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq.

Havanın temperaturu gecə 15-19° isti, gündüz 22-27° isti, dağlarda gecə 3-8° isti, gündüz 9-14° isti olacaq.

*Q.QƏZƏNFƏR*
*XQ*

## Ekologiya

# "Qorxulu" çimərlik

**Cənubi Afrika Respublikasının Qansbai çimərliyinə dünyanın hər yerindən gəlirlər. Burada çox maraqlı sualtı əyləncələr təşkil olunur. Lakin...bir əmma var.**




Məsələ burasındadır ki, çimərlik həm də pis reputasiya qazanıb. Belə ki, olduqca gözəl qumu olan çimərlik balina və köpək balıqları ilə doludur. Burada suya ayaq qoymaq belə riskdir.

## ALLAH RƏHMƏT ELƏSİN

Əflatun Amaşov, Bəxtiyar Əliyev, Akif Əhmədgil və Məsaim Abdullayev tələbə dostları Bahadur İmanquliyevə əzizi

**NURBALA FƏRZƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5023
SİFARİŞ 2399
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00